

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## 9 may - alman faşizmi üzərində Qələbədən 78 il ötür




11

SƏS
№ 079 (6762)
9 may 2023-cü il.
Qiyməti 60 qəpik

# Dirçələn, inkişaf edən ŞUŞA!



2

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 8-də Şuşaya səfər ediblər

# Böyük humanizm: 801 nəfər əfv edildi!



Prezident İlham Əliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə mayın 8-də "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam imzalayıb

6

## XİN: "Girov götürülmüş Azərbaycan hərbçilərinə qarşı qurama iddia və "məhkəmə prosesi"ni qınayırıq"



3

## "Ümummilli Lider Heydər Əliyevin media siyasəti və müasir Azərbaycan mediası" mövzusunda konfrans təşkil olunub



5

## Böyük Qayıdış: yeni həyat və hədəflər



9



## Təhsili olmayan bağça müəllimləri kütləvi ixtisar ediləcək?

16

## "Azərbaycan bu prosesdə güclü mövqeyə malikdir"



14

# Dirçələn, inkişaf edən ŞUŞA!

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 8-də Şuşaya səfər ediblər

**Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 8-də Şuşaya səfər ediblər. Dövlətimizin başçısı və birinci xanım Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlərlə tanış olublar.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi. Bildirildi ki, başlanğıcını M6 Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə işğaldan azad edilən Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirən 81,7 kilometr uzunluğundakı Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun beynəlxalq magistral normalarına uyğun tikintisi sürətlə davam etdirilir. Yolun 66-81-ci kilometrliyində işlərin 85 faizi başa çatıb. Uzunluğu 15,72 kilometr olan bu hissədə yolun hərəkət sahəsinin eni 10,75 metr, torpaq yatağının eni isə 21,5 metrdir. Dövlətimizin başçısının tapşırığına əsasən, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınaraq, dörd hərəkət zolaqlı olmaqla 1b texniki dərəcəyə uyğun inşa edilir.

Qeyd edildi ki, layihəyə əsasən, yolun bu hissəsində 5 viadukun (dərə üzərində körpü), 6 tunelin və bir körpünün tikintisi üzrə əsas işlər yekunlaşıb. Hazırda həm viaduklarda, həm də tunellərdə son tamamlanma işləri icra olunur. Viadukların tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilib. Yolun bu hissəsində suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü 15 dairəvi suötürücü boru, 24 düzbucaqlı su keçidi, 4 alt keçid və bir neçə ehtiyat keçid inşa edilib.

Dövlətimizin başçısı və birinci xanım görülən işlərlə bağlı videoçarxa baxdılar. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil magistralının tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.











Dünən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Daşaltı kəndində Zarıslıçay nasos stansiyasının açılışında iştirak ediblər. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dövlətimizin başçısına Şuşa şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri haqqında məlumat verdi.

Qeyd edək ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu tərəfindən 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad edildikdən qısa müddət sonra şəhərin içməli su təminatının bərpasına başlanılıb. Mütəxəssislər tərəfindən şəhərin su mənbələrinin, magistral xətlərin, paylayıcı şəbəkələrin və digər hidrotexniki qurğuların mövcud vəziyyəti araşdırılıb. Məlum olub ki, şəhəri içməli su ilə təmin edən mənbələr və magistral kəmərlər erməni vandallar tərəfindən məqsədli şəkildə dağıdılıb və şəhərə suyun nəqli dayandırılıb.

Təxirəsalınmaz Tədbirlər Proqramına uyğun olaraq, Kiçik Kirs mənbəyinin və Kiçik Kirs-Şuşa magistral su kəmərinin qəzalı hissələri qısa müddətdə təmir olunub və 2020-ci il noyabrın 25-də Şuşa şəhərinə suyun verilişi bərpa edilib. Eyni zamanda, Şuşa şəhərinin digər mənbəyi - Zarıslı sugötürücü qurğusunun, uzunluğu 14,3 kilometr olan Zarıslı-Şuşa magistral su kəmərinin qəzalı hissələrinin bərpasına başlanılıb və 2020-ci il dekabrın 20-də bu mənbədən şəhərə suyun verilməsi təmin edilib.

Şəhərin perspektiv inkişafı nəzərə alınaraq, həmçinin ilin müəyyən dövrlərində Kiçik Kirs və Zarıslı mənbələrində məhsuldarlığın kəskin azalması səbəbindən alternativ su mənbəyinin yaradılması layihəsinin icrasına başlanılıb. Bu məqsədlə Daşaltı kəndinin yaxınlığında, Zarıslı çayının məcrasında tutumu 25 min kubmetr təşkil edən sutoplayıcı anbar, nasos stansiyası və diametri 159 millimetr, uzunluğu 2,9 kilometr olan yeni təzyiqli kəmər inşa edilib, eyni zamanda, diametri 325 millimetr, uzunluğu 9,3 kilometr olan Kiçik Kirs-Şuşa magistral su kəmərinin istismara yararsız 5,2 kilometrlik hissəsi diametri 530-426 millimetr olan borularla əvəzlənib. Görülmüş işlərin nəticəsində 2022-ci ilin dekabrında yeni mənbədən suyun verilməsi ilə şəhərdə yaşayış olan evlər, dövlət qurumlarının inzibati binaları, hotellər, ictimai-iaşə müəssisələri və digər obyektlər fasiləsiz içməli su ilə təmin edilib. Dövlətimizin başçısı nasos stansiyasını işə salıb.

*Ardı Səh. 3*





# Dirçələn, inkişaf edən ŞUŞA!

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 8-də Şuşaya səfər ediblər**

Əvvəli Səh.2

Məlumat verildi ki, 2040-cı ilə perspektiv inkişaf nəzərə alınmaqla hazırlanan Şuşa şəhərinin su təchizatı, kanalizasiya və yağış suları sisteminin yenidən qurulması layihəsi 25 min nəfərin tələbatının ödənilməsinə hesablanıb. Layihəyə əsasən şəhərin orta gündəlik su tələbatı 105 litr-saniyə təşkil edir. Şəhərə içməli su mövcud Kiçik Kirs, Zarıslı mənbələrindən, həmçinin Zarıslıçay su anbarından veriləcək. Gələcəkdə Zarıslıçay su anbarı genişləndiriləcək və tutumu 25 min kubmetrdən 7,5 milyon kubmetrə çatdırılacaq. Eyni zamanda, məhsuldarlığı sutkada 8 min kubmetr olan içməli sutəmizləyici qurğu inşa olunacaq. Şəhərin su təchizatında dayanıqlılığın təmin olunması məqsədilə ümumi həcmi 6 min kubmetr olan 3 su anbarı layihələndirilib və hazırda onlardan birinin tikintisi davam etdirilir.

Layihəyə əsasən, Şuşa şəhərində 24 kilometr magistral su kəməri, 44 kilometr içməli, 42 kilometr tullantı və 41 kilometr yağış su şəbəkələri inşa olunacaq. Şəhərdə formalaşan tullantı sularının tam təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 8 min kubmetr olan qurğu inşa ediləcək. Qurğuda emal edilərək təmizlənən su ekoloji duruma zərər vurmadan Qarqarçaya axıdılacaq. Şuşa şəhərində yaradılan yeni infrastruktur "Ağıllı su" sistemi əsasında idarə olunacaq. Suyun mənbədən götürülməsi, nəqli, anbarların səviyyəsi, hidravlik rejimlər və digər proseslər SCADA sistemləri vasitəsilə onlayn rejimdə tənzimlənəcək. 2023-cü ilin ikinci yarısında məhsuldarlığı sutkada 8 min kubmetr olan içməli sutəmizləyici qurğunun inşası nəzərdə tutulur ki, bu işlərə də 7,4 milyon manat vəsait sərf olunacaq.






# XİN: "Girov götürülmüş Azərbaycan hərbçilərinə qarşı qurama iddia və "məhkəmə prosesi"ni qınayırıq"

**Cari ilin aprel ayında Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində Azərbaycan Ordusunun itkin düşmüş və Ermənistan tərəfindən əsir götürülmüş əsgərləri Bəbirov Aqşin Qabil oğlu və Axundov Hüseyn Əhliman oğluna qarşı Ermənistanın qurama "məhkəmə prosesi"ni və Aqşin Bəbirovun həbsi ilə bağlı qondarma "qərar"ı qətiyyətlə qınayırıq. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin girov götürülmüş Azərbaycan hərbçilərinə qarşı qurama iddia və "məhkəmə prosesi"nə dair şərhində bildirilir.**

Şərhdə deyilir: "Azərbaycan əsgərlərini qəddar fiziki işgəncələrə məruz qoyan Ermənistan bu kimi qurama "məhkəmə prosesi" vasitəsilə onları, həmçinin mənəvi və psixoloji işgəncələrə məruz qoyur.

Bu cür məsuliyyətsiz davranışı ilə Ermənistan beynəlxalq humanitar hüquqa əsasən daşıdığı hüquqi məsuliyyətə, beynəlxalq ictimaiyyətin girovların azad edilməsi barəsində çağırışlarına və humanizm prinsiplərinə məhəl qoymadığını bir daha nümayiş etdirir.

Ermənistan tərəfinin bu qurama addımı ilə ölkəmizin erməni girovlarının, xüsusilə də yolu azaraq sərhədi keçmiş 10-dan artıq hərbçini heç bir qeyd-şərt irəli sürmədən dərhal geri qaytarılması üzrə etimad quruculuğu tədbirinə qarşılıq verməməsi Ermənistanın bölgədə barışıq və etimad yaradılması tədbirlərində maraqlı olmadığını göstərir. Bu davranışla etimad quruculuğu səylərinə zərbə vurulması məsuliyyəti tam olaraq Ermənistan tərəfinin üzərinə düşür.



Ermənistan beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması ilə müşayiət olunan bu təxribatçı fəaliyyətinə son qoymalı, girov götürülmüş əsgərləri dərhal azad etməlidir.

Girovluqda olan əsgərlərimizin tezliklə azad edilməsi və ailə üzvlərinə qovuşması üçün bütün beynəlxalq ictimaiyyəti, aidiyyəti beynəlxalq təşkilatları və qeyri-hökumət təşkilatlarını Ermənistana ciddi təsir və təzyiq göstərməyə çağırırıq".

# “Xarıbülbül”

## yenidən Şuşamızdan dünyaya səs salacaq!

**Şuşamız işğaldan azad olunandan sonra öz baharına qovuşdu. Uzun illərdən sonra yenidən Şuşada, Cıdır düzündə ”Xarıbülbül” musiqi festivalının keçirilməsi bir daha dünyaya göstərmiş oldu ki, işğaldan azad olunan torpaqlarımızda yeni, qaynar həyat başlanıb. Əlbəttə ki, ”Xarıbülbül” musiqi festivalı hər bir azərbaycanlı üçün böyük qürurdur. Musiqi beşiyi, musiqi məbədi olan Şuşada belə bir tədbirin keçirilməsi hər birimizin müqəddəs arzusu, istəyi idi ki, bu gerçəkliyə çevrildi.**



Şuşamızdan ”Xarıbülbül” yenidən dünyaya səs salacaq. Mayın 9-11-də Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində ”Xarıbülbül” eynəlxalq Musiqi Festivalı keçiriləcək. 3 gün davam edəcək festival çərçivəsində konsert proqramları, sərgilər və müxtəlif təqdimatlar olacaq. Qeyd edək ki, Şuşa şəhəri 2023-cü ildə həm də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən ”Türk dünyasının mədəniyyət paytaxtı” elan edilib. Budəfəki ”Xarıbülbül” Beynəlxalq Musiqi Festivalında da TÜRKSOY-a daxil olan ölkələr, regionun türkdilli ölkələri və xalqlarının yaradıcı kollektivləri iştirak edəcəklər.Mayın 12-də isə ”Şuşa-Türk dünyasının mədəniyyət paytaxtı 2023” tədbirinin rəsmi açılışı olacaq.Xatırladaq ki, ”Xarıbülbül”






Beynəlxalq Festivalı məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlayıb. 1989-cu ilin əvvəlində festivala hazırlıq başlamışdır. Festival eyni ilin may ayında, Şuşa Xarıbülbülündə çiçəklənmə dövründə keçirilmişdir. 1989-cu ilin festivalında yerli ifaçılardan əlavə Qırğızıstan SSR, Qazaxıstan SSR, Başqırdıstan SSR, Litva SSR və Belarus SSR-dən olan musiqi qrupları da iştirak edirdi. Ümumilikdə festivalda 100-ə yaxın insan iştirak edib. Konsertlər Cıdır düzü meydançasında tikilmiş 7 məkanda keçirilmişdir. Festival 12-15 yaşlarında ”Qarabağ şikəstəsi” muğamını ifa edən gənc xanəndələrin ifası ilə açılmışdı. Festivalın ilk günü Qarabağ atlarında da yarışlar olmuşdu. İlk festivalın tamaşaçıları əsasən Şuşanin sakinləri idilər.

### HƏSRƏTLƏ GÖZLƏDİYİMİZ MƏKANIN QOYNUNDA MÖHTƏŞƏM TƏDBİR

Bu gün işğaldan azad olunan torpağımızda bu festivalın keçirilməsinin başqa bir ahavası var. 2020-ci il noyabrın 8-də Azərbaycan Şuşa şəhərini erməni işğalçılarından azad etmişdir. Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa şəhərini ölkənin Mədəniyyət paytaxtı elan etmişdir. Bu Sərəncamla Vaqif Poeziya günləri və ”Xarıbülbül” festivalı da bərpa olunmuşdur. 2021-ci il mayın 12-i və 13-də Heydər Əliyev fondunun təşkilatçılığı ilə festival baş tutmuşdur. Xarıbülbül festivalı Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin çıxışı ilə başlamışdır. Daha sonra Azərbaycanda yaşayan xalqların folklor ansambllarının çıxışları baş tutmuşdur. Sənətçiləri səhnədə Azərbaycan Dövlət Akademik Filarmoniyasının Dövlət Rəqs Ansamblının musiqiçiləri müşayət etmişdir. Həmçinin müxtəlif illərdə Şuşada lentə alınan azərbaycanlı müğənnilər Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Rəşid Behbudov, Şövkət Ələkbərovanın ifaları ilə videolar nümayiş olundu.

Daha sonra 2022-ci ilin Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində V ”Xarıbülbül” Beynəlxalq Folklor Festivalı start götürdü. Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə elan edilən ”Şuşa İli”ndə keçirilən V ”Xarıbülbül” Beynəlxalq Folklor Festivala dünyanın müxtəlif ölkələrindən gələn folklor üslublarında çıxış edən musiqiçilər, rəqs kollektivləri, həmçinin Azərbaycanın müxtəlif regionlarından folklor kollektivləri qatıldılar. Şuşanın qoynunda ifa olunan ”Qarabağ şikəstəsi”nin sədalarının Şuşa dağlarına yayılması əlbəttə ki, böyük bir sevgimizin izharıdır. İllərlə həsrətlə gözlədiyimiz bir məkanın qoynunda belə möhtəşəm tədbirin keçirilməsi qürurumuzdur.

Festival çərçivəsində milli rəqs, muğam sənəti təqdim olundu. Ölkəmizin müxtəlif regionlarını və milli azlıqları təmsil edən folklor kollektivlərinin konsertləri keçirildi, Azərbaycan xanəndələrinin müxtəlif illərdə Şuşada lentə alınmış ifalarından ibarət videoçarxlar nümayiş etdirildi və klassik musiqi əsərləri təqdim olundu. ”Xarıbülbül” festivalı hər bir azərbaycanlının qürurudur.

Dünyanın nəzər nöqtəsində olan Azərbaycanın reallıqları Prezident İlham Əliyevin müdrik siyasətindən qaynaqlanır. 44 günlük Vətən müharibəsi bir daha dünyanı Azərbaycanın gücü, reallıqları ilə təəccübləndirdi. Dünyanın heç bir nöqtəsində 44 günlük zaman məsafəsində hansısa müharibəni qalibiyyətlə başa vurmaq görünməmiş hal idi. Bunu tarixə Azərbaycan yazdı. 44 gün və qalib, müzəffər Azərbaycan xalqı. Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktikanın döyüş meydanında Azərbaycan Ordusunun ”Dəmir yumruq” əməliyyatı XXI əsrin müharibəsi olaraq dünya tarixində yer aldı. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin bildirdiyi kimi, İkinci Qarabağ müharibəsi bizim gücümüzü göstərdi, müasirliyi göstərdi.

Azərbaycan hərbi, iqtisadi gücü ilə dünyanın diqqətini özünə cəlb etdiyi kimi, bu gün işğaldan azad olunan ərazilərimizdə həyata keçirilən abadlıq-quruculuq işləri ilə də dünya dövlətlərinin diqqətindədir. 2020-ci ilin noyabrın 8-də 28 illik həsrətdən sonra Şuşa şəhəri işğaldan azad edildi. Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciətində ”Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”, - deyərək xoş müjdəni verdi. Cənab İlham Əliyev bütün dünyaya Azərbaycanın gücünü, tarixi ədaləti diplomatik yol ilə bərpa etdiyini göstərdi. Şuşa şəhərində keçirilən tədbirlər də bir daha dünyanın diqqətəni ölkəmizə - tarixi Şuşa şəhərimizə cəlb edir.

### CIDIR DÜZÜ”, ”İSA BULAĞI” AZƏRBAYCAN MUSİQİSİNƏ QOVUŞUB

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşa şəhərində Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərinin, tarixi və dini abidələrin, muzeylərin planlı şəkildə bərpa olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Şuşada Gövhərağa məscidinin bərpası Azərbaycanın öz dərəylərinə milli-mənəvi islami dəyərərinə olan ehtiramın nümunəsidir. Dövlət başçısının bildirdiyi kimi, ”Bundan sonra biz Şuşada əbədi yaşayacağıq və Şuşanın bərpa edilməsi artıq başlanmışdır. Verilən göstərişlər yerinə yetirilir”.

Azərbaycanın qədim şəhəri Şuşanın 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və o vaxtdan işğal dövrünə qədər bu şəhərdə həmişə azərbaycanlılar yaşayıblar. Qədim mədəniyyət beşiyi olan Şuşanın daş yaddaşı tarixin keçməşeşli yollarının hər bir ilini silinməz səhifəsinə yazmışdır. Nə qədər hücümlara məruz qalsa da, öz məğrurluğunu qoruyub saxlamışdır.

İndi Şuşa yeni dövrünü yaşayır. Bu gün Şuşa dağları həsrətlə yaşadığı, acıdığı musiqimizə, sənət dünyamıza qovuşub. Toy-büsatlı Şuşamızda yenidən ”Xarı Bülbül” Beynəlxalq musiqi festivalı keçirilir. Artıq hər kəs rahatlığa qovuşub. Üzeyirin, Nətəvanın, Bülbülün güllələnmiş heykəlləri də Şuşada rahat nəfəs alır. Uzun illər R.Mustafayev adına Azərbaycan Dövlət Muzeyində saxlanılan heykəllər rahatlıq tapıb. Şuşa, ”Cıdır düzü”, ”İsa bulağı” həsrətində olduğu sakinlərinə, Azərbaycan musiqisinə qovuşub.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Heydər Əliyev-100

***Mayın 8-də Medianın İnkişafı Agentliyinin və Audiovizual Şuranın birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Ümummilli Lider Heydər Əliyevin media siyasəti və müasir Azərbaycan mediası" mövzusunda konfrans keçirilib.***

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Sonra Ümummilli Lider Heydər Əliyevin, Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda açılış nitqi ilə çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Ümummilli Lider Heydər Əliyevin medianın işini, jurnalist əməyini daim yüksək qiymətləndirdiyini, jurnalist peşəsinə hər zaman dərin hörmət bəslədiyini,







## "Ümummilli Lider Heydər Əliyevin media siyasəti və müasir Azərbaycan mediası" mövzusunda konfrans təşkil olunub









mətbuat işçiləri ilə yaxın təmasda olduğunu bildirib, onun jurnalistlərin problemləri ilə maraqlandığını və köməyini heç zaman əsirgəmədiyini vurğulayıb.

Ə.İsmayılov deyib ki, Ümummilli Liderin siyasətini və ənənələrini müasir dövrün tələblərinə uyğun uğurla davam etdirən Prezident İlham Əliyev medianın inkişafına əlverişli şərait yaradılmasını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib. Bu böyük etimad media nümayəndələrinin də öz peşəkar missiyalarını həyata keçirməkdə məsuliyyətini artırıb.

Ümummilli Lider Heydər Əliyevin demokratiyanın mühüm prinsiplərindən olan söz və məlumat azadlığına, eləcə də medianın inkişafına diqqət və qayğısından bəhs edən Audiovizual Şuranın sədri İsmət Səttarov bildirib ki, məhz Ulu Öndərin 1998-ci ildə imzaladığı senzuranın ləğv edilməsi haqqında məlum Fərmanından sonra bir sıra qanunvericilik aktları qəbul olunub, Avropa standartlarına uyğun müstəqil tənzimləyici qurum olan Şura yaradılıb, televiziya və radio yayımının tənzimlənməsi sferası tam yeni mərhələyə qədəm qoyub. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı və audiovizual media bazarında münbit şəraitin yaranması yeni televiziya və radio yayımçılarının yaranmasına, bu sahənin yeni forma almasına imkan yaradıb.

Konfransda çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə milli etimad əsasında - xalqın iradəsi ilə hakimiyyətə gəlməsindən sonra bütün istiqamətlərdə olduğu kimi, media sahəsində də islahat xarakterli məqsədyönlü tədbirlər həyata keçirilib, bu istiqamətdə əsaslı, müsbət dəyişikliklər baş verib. Xüsusilə vurğulanıb ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Zəfər yürüşünə çıxan igid əsgər və zabitlərimizin unudulmaz qəhrəmanlıqları ilə yanaşı, arxa cəbhədə ideoloji və təbliğat müstəvisində mübarizə aparan dəyərli qələm sahibləri - vətənpərvər və peşəkar jurnalistlərimiz Azərbaycanın mənafelərini qətiyyətlə qoruyub, həqiqi reallıqları beynəlxalq ictimaiyyətə çatdırmaqla erməni yalanlarını ifşa ediblər.

Sonra "Ümummilli Lider Heydər Əliyev və Azərbaycan mediası" adlı videoçarx nümayiş olunub.

"Ümummilli Lider Heydər Əliyevin media siyasəti və müasir Azərbaycan mediası" mövzusunda keçirilən panel sessiyaya moderatorluq edən Azərbaycan Televiziyası sədrinin müavini Rafiq Həşimov Ulu Öndərin siyasi iradəsi və böyük səyləri nəticəsində Azərbaycanda plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələrin aradan qaldırıldığını deyib.

Milli Məclisin deputatı Hikmət Babaoğlu çıxışında Ulu Öndər Heydər Əliyev siyasətində media azadlığı və kütləvi siyasi şüur məsələsinə toxunub, Azərbaycanda media azadlığının konstitusion əsaslarından bəhs edərək medianı ictimai rəyi formalaşdıran universal vasitə kimi qiymətləndirib.

Mətbuat Şurasının sədri Rəşad Məcid bildirib ki, Ulu Öndər Heydər Əliyevin milli jurnalistikamızın inkişafı sahəsində ən böyük tarixi xidmətlərindən biri 1998-ci ildə KİV üzərində senzuranın tamamilə ləğv edilməsi olub. O əlavə edib ki, Ulu Öndər cəmiyyətdə jurnalistlərə münasibətin formalaşmasında mühüm rol oynayıb, bütün ölkə jurnalistləri Heydər Əliyevi təkcə ölkə başçısı kimi deyil, həm də bir dost, onların zəhmətinə qiymət verən yaxın sirdaş kimi qəbul edib.

Audiovizual Şuranın üzvü Telli Pənahqızı Ulu Öndər Heydər Əliyevin görkəmli lider və vətəndaş kimi atdığı addımların müstəqil Azərbaycanın güclənməsində, eləcə də savadlı, peşəkar və xalqını sevən gənclərin, o cümlədən peşəkar jurnalistlərin yetişməsində vacib rol oynadığını diqqətə çatdırıb.

"Xalq qəzeti"nin baş redaktoru Əflatun



Amaşov vurğulayıb ki, Ümummilli Lider tərəfindən mətbuat orqanlarının azad fəaliyyətinə yaradılan şərait, qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində görülən tədbirlər ölkədə fikir plüralizminin genişləndirilməsinə, söz və fikir azadlığının qorunması sahəsində əsaslı irəliləyişlərə şərait yaradıb.

# Böyük humanizm: 801 nəfər əfv edildi!

## Prezident İlham Əliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə mayın 8-də "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam imzalayıb



Müasir Azərbaycan dövlətinin qurucusu, dahi siyasi və dövlət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin ölkəmizin tarixində əlamətdar hadisə olaraq ulu öndərin əbədiyaşar əziz xatirəsini dərin hörmət və ehtiramla yad edərək, onun bəşəri amallara, qanunçuluq və ədalət ideallarına söykənən zəngin mənəvi irsinə sadiq qalaraq, demokratik hüquqi dövlət quruculuğu istiqamətində fundamental islahatların həyata keçirilməsində Heydər Əliyevin misilsiz xidmətlərini, insan hüquq və azadlıqlarının qorunmasına xüsusi önəm verdiyini xatırlayaraq, humanizm, mərhəmət və insanpərvərlik ənənələrini davam etdirərək, cəzadan azad olunacaq şəxslərin müstəqil dövlətimizin rifahına və cəmiyyətin inkişafına öz töhfəsini verəcəklərinə inanaraq, məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin, insan hüquqlarının müdafiəsi təşkilatlarının Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2023-cü il mayın 8-də ”Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında” Sərəncam imzalamışdır. Sərəncama əsasən, 801 məhkum əfv olunmuş, onlardan 463 şəxs azadlıqdan məhrum etmə cəzasından, 220 şəxs azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfər azadlıqdan məhrum etmə ilə bağlı olmayan digər cəzalardan (azadlığın məhdudlaşdırılması, islah işləri, cərimə cəzaları və cəzaya şərti məhkum edilmiş şəxslər) azad edilmişdir.

Qeyd edilməlidir ki, bu Sərəncam şamil edildiyi şəxslərin dairəsinə görə müstəqil Azərbaycan Respublikasının tarixində qəbul edilmiş ən böyük əfv aktıdır.

### HUMANİZMİN HEYDƏR ƏLİYEV ZİRVƏSİ

Mənalı ömrünü doğma Vətəninə və millətinə fəda edərək adını müasir Azərbaycan tarixinə əbədi həkk etdirmiş ümummilli lider Heydər Əliyev müstəqilliyimizin xilaskarı, milli dövlətçiliyimizin memarı və demokratik hüquqi dövlətin banisi olmaqla demokratik dəyərlərin başlıca meyarlarından sayılan insan dhüquq və azadlıqlarının təmin olunmasına və müdafiəsinə diqqətlə yanaşan Azərbaycan hakimiyyəti cəmiyyətdə humanizm ənənələrinin təşəkkül tapmasına və möhkəmlənməsinə də hər zaman həssaslıqla yanaşmışdır. Heydər Əliyev bütün dövrlərdə humanizm məfkurəsindən çıxış edərək, mərhəmət və insanpərvərlik kimi ən ali keyfiyyətləri əldə rəhbər tutmuşdur. Ulu öndərin humanizm ideyalarına böyük önəm verməsi və real həyatda bunu təcəssüm etdirən addımlar atması vətəndaş həmrəyliyinə xidmət etməklə yanaşı, insanların hakimiyyətə olan etimadını daha da artırmışdır.

Xalqımızın böyük oğlu Heydər Əliyevin 1969-cu ildə Azərbaycanın rəhbərliyinə gəlişindən sonra ölkəmizin bütün sahələrində yeni mərhələ başlandı, hərtərəfli canlanma yaşandı. Milli-mənəvi və əxlaqi dəyərlərə söykənən genişmiqyaslı tədbirlər həyata keçirildi və bunun nəticəsi kimi insanlarda milli ruh, özünüdərkin oyanışı formalaşmağa başladı. Heydər Əliyev ölkədə hüquqi dövlətə xas olan qanunçuluğun, ədalət və hüquq qaydasının təmin olunması sahəsində qətiyyətli və cəsarətli addımlar atdı, gələcəyə hesablanan ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirdi. Milli qürur hissinin və milli şüurun yüksəlməsi həm sosial-iqtisadi, həm elmi və mədəni, həm də ictimai həyatın digər sahələrinin dirçəlişinə bünövrə oldu. Ulu Öndər Heydər Əliyevin o illərdə həyata keçirdiyi islahatlar sonradan milli dövlətçilik ideyalarının əsasında duran ana xəttə çevrildi, xalqın bir ideya ətrafında birləşməsinə şərait yaratdı. Azərbaycanın hazırkı siyasi və iqtisadi müstəqilliyi, dünyaya inteqrasiyası məhz ötən əsrin 70-80-ci illərində təməli Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm potensiala əsaslanır. Xalqımızın müstəqilliyi və azadlığı uğrunda gedən mübarizəsinin uğuru da ulu öndərin fədakar siyasi fəaliyyətinin nəticəsində əldə olundu. Bu yolda ağır vəziyyətdə olan ölkəsinin, xalqının xilası naminə 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycanın müstəqilliyinin əbədiliyini və dönməzliyini təmin etdi, xalq-dövlət birliyini, ictimai-siyasi sabitliyi və iqtisadi dirçəlişi təmin etməklə, demokratik hüquqi dövlət quruculuğunu özünün dövlətçilik strategiyasının prioritet istiqaməti kimi müəyyənləşdirdi.

### ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN TƏŞƏBBÜSÜ İLƏ ŞƏRQ ALƏMİNDƏ İLK DƏFƏ OLARAQ AZƏRBAYCANDA ÖLÜM CƏZASININ LƏĞVİ ÖLKƏMİZİN DÜNYƏVİ, DEMOKRATİK, HÜQUQİ DÖVLƏT QURUCULUĞU YOLU İLƏ İNAMLA İRƏLİLƏDİYİNİ BİR DAHA SÜBUT EDİR

Müstəqillik əldə etdikdən sonra insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə həyata keçirilən hüquqi islahatlar davamlı xarakter almışdır. Məhz dahi şəxsiyyətin rəhbərliyi altında demokratik və hüquqi dövlət quruculuğu yolunda atılan addımlar, beynəlxalq standartlara əsaslanan köklü hüquq islahatları insan hüquq və azadlıqlarının təminatı sahəsində əsaslı dönüşə səbəb olmuşdur. 1998-ci il fevralın 10-da isə ulu öndərin təşəbbüsü ilə Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm cəzası tamamilə ləğv edildi. Bununla bağlı Ümummilli Lider deyirdi: ”Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm”. Bu qərar bütün dünyaya bir daha bəyan etdi ki, Azərbaycanın hüquqi-demokratik dövlət quruculuğu yolu ilə inamla addımlayır.Demokratik hüquqi dövlət quruculuğunda ulu öndər Heydər Əliyevin ən böyük əməyi müstəqil Azərbaycanın ilk konstitusiyasının hazırlanması və qəbul edilməsi oldu. Ümummilli liderin müəllifi olduğu və 1995-ci il noyabrın 12-də Azərbaycanın tarixində ilk dəfə olaraq ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil dövlətimizin Konstitusiyasında insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan olundu. Ulu öndər hesab edirdi ki, demokratik dəyərləri üstün tutan, haqq və ədalətin bərqərar olunduğu dövlət qurmaq istəyən hər bir ölkə, hər bir xalq üçün Konstitusiya birinci dərəcəli əhəmiyyət daşıyır. Dahi öndərin bilavasitə rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanmış Konstitusiya tarixi əhəmiyyətə malik sənəd kimi ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət quruculuğunun möhkəm təməlini qoydu.Dahi öndər Heydər Əliyevin demokratik hüquqi dövlət quruculuğunda müstəsna xidmətlərindən biri hüquqi dövlətə xas olan müstəqil məhkəmə hakimiyyətinin yaradılmasıdır. Bununla bağlı ümummilli liderin rəhbərliyi ilə ölkədə köklü islahatlar aparılaraq, ilk növbədə, məhkəmə fəaliyyətini tənzimləyən yeni qanunlar və məcəllələr hazırlanıb qəbul edildi. Ulu öndər deyirdi: ”Biz hüquqi dövləti, demokratik dövləti yaradırıq və onu pillə-pillə yüksəkliklərə qaldırırıq. Bunun da ən prinsipial hissəsi məhkəmə sistemində islahatların keçirilməsi, bütün məhkəmə sisteminin beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasıdır”.

1996-cı ildə ümummilli lider Heydər Əliyevin müvafiq Sərəncamı hüquq islahatları komissiyasını, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində qanunun aliliyinin təmin olunmasını, beynəlxalq hüquq normalarının milli qanunvericilikdə nəzərə alınmasını və bu kimi digər əhəmiyyətli məsələləri nəzərdə tuturdu ki, bu da ulu öndər Heydər Əliyevin göstərişi ilə qısa zaman kəsiyində uğurla həyata keçirilməklə ölkəmizdə məhkəmə hüququ sisteminin keyfiyyətcə yeniləşməsinə və müasirləşməsinə rəvac vermişdir. Ümummilli liderin ölkədə hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində atdığı ilk addımlardan biri məhz 9 avqust 1994-cü il tarixli ”Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında” Fərmanı olmuşdur. Həmin fərmanla cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirilmiş, hüquq-mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyənləşdirilmişdir. Qeyd edək ki, 1995-2003-cü illərdə 7 amnistiya aktı və 32 əfv fərmanı imzalanıb. Bu amnistiya aktı 77 mindən çox insana şamil edilib.

### ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN HUMANİZM İDEYALARININ DAVAMÇISI - PREZİDENT İLHAM ƏLİYEV TƏRƏFİNDƏN LAYİQİNCƏ DAVAM ETDİRİLİR

Humanistlik, ölkəmizdə həyata keçirilən mükəmməl siyasətin əsasını təşkil etdiyindən, humanizm prinsiplərinin bütün sahələr üzrə davamlı reallaşdırılması prioritet istiqamətlərdəndir. Bu gün ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu insanpərvərlik ənənələrini uğurla davam etdirən Prezident İlham Əliyevin bütün fəaliyyəti boyu, o cümlədən ölkəyə rəhbərlik etdiyi ilk günlərdən insanlara qarşı mərhəmətli və humanist mövqe tutması danılmaz həqiqətdir. Sevindirici və qürurvericidir ki, böyük şəxsiyyət Heydər Əliyev xalqın israrlı xahişi ilə növbəti dəfə hakimiyyətə gəldikdən sonra hüquqi və demokratik dövlətin əsas özüllərindən biri olan insan hüquqlarının və azadlıqlarının müdafiəsi ölkəmizdə daha etibarlı təşkil olunmuş, hər bir sahədə insanpərvərlik və mərhəmət prinsiplərinin rəhbər tutulması bərqərar edilmişdir. Qeyd etmək zəruridir ki, hazırda bu hüquqi-insanpərvər ənənələr uğurla davam etdirilir. Dahi şəxsiyyətin möhkəm təməllər üzərində əsasını qoyduğu uzaqgörən siyasətin varisliyini bütün sahələrdə dövrün tələblərinə uyğun layiqincə davam etdirən Prezident İlham Əliyev əfvetmə institutunun çevik və işlək mexanizmlər əsasında fəaliyyət göstərməsini daim diqqət mərkəzində saxlayır. Səmərəli fəaliyyət göstərməklə xalq arasında yüksək nüfuz qazanmış Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının gördüyü xeyirxah işlər kimliyindən asılı olmayaraq hər bir kəsə inamla və hörmətlə yanaşmanı, insanpərvərlik ideyalarının cəmiyyətdə geniş yayılmasını şərtləndirmişdir. Son 19 il ərzində Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı əfv fərman və sərəncamı, böyük ürəkli insanın təşəbbüsü ilə qəbul olunmuş çoxsaylı amnistiya aktları on minlərlə insana sevinc bəxş etmişdir. Millətinə xidməti həyat amalına çevirmiş örnək lider cənab İlham Əliyev xalq qarşısında verdiyi vədləri son 19 ildə əməlləri ilə doğruldaraq hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirmişdir.

### PREZİDENT İLHAM ƏLİYEVİN İMZALADIĞI NÖVBƏTİ ƏFV SƏRƏNCAMI HUMANİZM SİYASƏTİNDƏ ƏN BÖYÜK ƏFV AKTIDIR

Prezident İlham Əliyevin bütün fəaliyyəti boyu, o cümlədən ölkəyə rəhbərlik etdiyi ilk günlərdən insanlara qarşı mərhəmətli və humanist mövqe tutması danılmaz həqiqətdir. Belə ki, dövlət başçısı ənənəvi olaraq, bayram günləri,bir sıra əlamətdar tarixlər öncəsi imzaladığı əfv sərəncamları ilə xeyli sayda insanı azadlığa qovuşdurur. Və bu gün Prezident İlham Əliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə mayın 8-də ”Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” Sərəncam imzalaması ulu öndər Heydər Əliyevin humanizm siyasətinin davamıdır. Dövlətimizin başçısı bu humanist addımları ilə Azərbaycan vətəndaşına yüksək dəyər verir, hüquq və azadlıqlarını hər şeydən uca tutur.Sərəncamla dövlətimizin başçısı yüzlərlə ailəyə sevinc bəxş etdi, yeni nəfəs gətirdi. Bu, Azərbaycan tarixində qəbul edilmiş ən böyük əfv aktıdır. Belə ki, bu dəfə əvvəlkilərindən daha çox - 801 məhkum əfv edilib. Onlardan 463 nəfəri azadlıqdan məhrum etmə cəzasından, 220 şəxs azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfər azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan (azadlığın məhdudlaşdırılması, islah işləri, cərimə cəzaları və cəzaya şərti məhkum edilmiş şəxslər) azad olunub. İnanırıq ki, əfv olunan şəxslər ölkəmizdə qanunun aliliyini dərindən dərk edərək bir daha onu pozmayacaq, faydalı işlərlə məşğul olacaq, cəmiyyətimizin inkişafına töhfələr verəcəklər. Prezident İlham Əliyev tərəfindən imzalanan əfv Sərəncamı vətəndaşlara verilən dəyərin, dövlətin humanist siyasətinin daha bir bariz nümunəsi olmaqla, həm də bu Sərəncam şamil edildiyi şəxslərin dairəsinə görə müstəqil Azərbaycan Respublikasının tarixində qəbul edilmiş ən böyük əfv aktıdır və bu, bir daha onu sübut edir ki, Azərbaycan xalqının öz Prezidentinə inamı sarsılmazdır və bu inamı heç kim sarsıda bilməz.

Kimliyindən, tutduğu mövqedən asılı olmayaraq hər bir vətəndaşın dərdi-səri, qayğıları, problemləri Azərbaycan Prezidenti İlham Əliyevin diqqətində və nəzarətindədir. Və Prezident İlham Əliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə mayın 8-də ”Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” Sərəncamı da Azərbaycan Prezidentinin siyasi iradəsinin və qətiyyətinin, bir sözlə, dövlətin öz vətəndaşlarına humanist münasibətinin bariz nümunəsidir.

***RƏFİQƏ KAMALQIZI***

# Heydər Əliyev-100





## Prezident Kitabxanasında Ümummilli Liderə aid tammətnli elektron resursların, sənədlər toplusunun təqdimatı olub

Mayın 8-də Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş geniş foto və kitab sərgilərinin, tammətnli elektron resursların, sənədlər toplusunun təqdimatı təşkil edilib.

Əvvəlcə kitabxananın direktoru Mayıl Əhmədov çıxış edərək, tədbir haqqında ümumi məlumat verib və Ulu Öndərin keçdiyi həyat yolundan, Azərbaycan dövlətinin qurulması və inkişafı uğrunda gördüyü işlərdən danışıb: ”Müasir tariximizin bir qərinəlik dövrü dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi və dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişafı, beynəlxalq aləmdə nüfuzunun artması Heydər Əliyevin qətiyyətli siyasəti sayəsində mümkün olmuşdur. Ölkəmizin bugünkü ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrindəki nailiyyətlərin əsası onun dövlətimizin başçısı olduğu dövrdə qoyulub. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası öyrənmək, onu təbliğ etmək və qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli borcudur. Hazırda istər ölkə daxilində, istərsə də xarici ölkələrdə Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə silsilə tədbirlər və beynəlxalq konfranslar keçirilir. Heydər Əliyevin ömür yolu, dövlətçilik missiyası və zəngin irsi yenidən öyrənilir, təhlil və təbliğ edilir. Ümummilli Liderin tövsiyəsi ilə təşkil edilən Prezident Kitabxanası yarandığı vaxtdan etibarən onun həyat və fəaliyyətinin bütün sahələrinə aid materialların, zəngin irsinin toplanılması, sistemləşdirilməsi və onların elektron variantının hazırlanması istiqamətində sistemli iş aparır. Kitabxananın əməkdaşlarının hazırladıqları ”Heydər Əliyev. Elektron sənədlər toplusu” Ulu Öndərin anadan olmasının 100 illiyi ərəfəsində həm məzmun, həm də dizayn baxımından tamamilə yenilənib. Geniş oxucu kütləsinin və tədqiqatçıların istifadəsi üçün nəzərdə tutulan həmin informasiya resursu, sənədlərin və materialların rəqəmsal formatda toplanılması və təqdim edilməsi baxımından ölkədə yaradılan ən mükəmməl informasiya sistemidir”.

Onun sözlərinə görə, ”Heydər Əliyev. Elektron sənədlər toplusu” 8 fəsil və 42 bölmədən ibarətdir. ”Ümummilli Lider” fəslinin ”Bioqrafiya” bölməsində Heydər Əliyevin həyat və fəaliyyətinin mühüm məqamları öz əksini tapır. ”Xronologiya” bölməsində 1923-1969, 1969-1982, 1982-1987, 1990-1993 və 1993-2003-cü illərdə Heydər Əliyevin gündəlik həyatının mühüm mərhələləri 412 səhifədə xronoloji ardıcıllıqla işıqlandırılır. Elektron resursun ”Sənədlər” fəsli ”Nitqlər”, ”Çıxışlar”, ”Söhbətlər”, ”Müsahibələr”, ”Bəyanatlar”, ”Təbriklər” bölmələri üzrə qruplaşdırılıb. Bu fəsildə yerləşdirilən materialların ümumi həcmi 7 min səhifədən artıqdır. ”Xarici siyasət fəaliyyəti” fəslinin ”Xronologiya” bölməsində Heydər Əliyevin Prezident olduğu illərdə 36 dövlətə 132 səfərinin materiallarının təhlili göstərir ki, bu səfərlərin 32-si dövlət və rəsmi səfər xarakteri daşımışdır. Ümummilli Lider Türkiyəyə 24, Rusiyaya 22, ABŞ-a 9 dəfə səfər edib. 5 dəfə BMT-də, 20 dəfə MDB-də, 5 dəfə Türk Dövlətləri Təşkilatında keçirilən tədbirlərdə iştirak edib. NATO, AŞPA, ATƏT, GÜAM, İKT kimi regional təşkilatların tribunalarından dəfələrlə Azərbaycanın haqq səsini dünyaya çatdırıb. Azərbaycan-Ermənistan münaqişəsinin nizamlanması məqsədilə Ermənistan prezidentləri ilə 21 görüş keçirib. Bu fəslin ”Rəsmi sənədlərin biblioqrafiyası” bölməsində Heydər Əliyevin imzaladığı 5863 qanun, fərman və sərəncamın biblioqrafik təsvirləri illər üzrə toplanılıb təqdim edilir. Təhlillər göstərir ki, Heydər Əliyev müəllifi olduğu ”Neft strategiyası”nı reallaşdırmaq üçün müxtəlif səviyyələrdə 46 görüş keçirib, bu mövzuda 85 dəfə nitqlər söyləyib və çıxışlar edib, 4 bəyanat və 8 dəfə müxtəlif KİV-lərə müsahibə verib.

Diqqətə çatdırılıb ki, ”Elektron kitabxana” fəslində 1997-2013-cü illərdə çap edilən və Ümummilli Liderin çıxışlarının, nitqlərinin, bəyanatlarının, məktublarının, müsahibələrinin, söhbətlərinin, müraciətlərinin mətnləri daxil edilmiş ”Müstəqilliyimiz əbədidir” çoxcildliyinin 46 cildinin elektron versiyaları, Kitabxananın fonduna daxil olan Heydər Əliyev haqqında yazılan 400-dən artıq kitabın və 1100-dən artıq seçilmiş məqalənin elektron versiyaları öz əksini tapır.

Kitabxananın əməkdaşlarının Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə hazırladıqları ”Heydər Əliyev-100” adlı statik Elektron biblioqrafik göstərici resursun ”Biblioqrafiya” fəslində yerləşdirilib. Göstəricidə Heydər Əliyev haqqında müxtəlif dillərdə yazılan kitabların və dövri mətbuatda dərc edilmiş məqalələrin, müdafiə olunmuş dissertasiyaların avtoreferatlarının biblioqrafik təsvirləri, Azərbaycan və rus dillərində kitab müəlliflərinin köməkçi adlar göstəricisi də təqdim edilir. Göstəricidə 10 minə yaxın biblioqrafik təsvir verilir. Elektron resursun ”Fotoqalereya” fəslinin ”Fotoalbom” bölməsində Ümummilli Lider Heydər Əliyevin ömrünün bütün dövrlərinin mühüm məqamlarını özündə əks etdirən fotolar xronoloji ardıcıllıqla təqdim edilir. ”Fotosənəd” bölməsində isə dahi şəxsiyyətə məxsus şəxsi sənədlərin bir qisminin surətləri yerləşdirilib.

Tədbirdə Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycanın inkişafı naminə Ümummilli Lider Heydər Əliyevin gördüyü misilsiz işlərdən danışıb: ”Azərbaycanın inkişaf edərək dirçəlməsində və onun müstəqil və suveren ölkə kimi nüfuz qazanmasında Ulu Öndərin misilsiz xidmətləri var. Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunması, çoxəsrlik tarixi ənənələrin və ümumiyyətlə Azərbaycan xalqının azadlıq və müstəqillik yolunda milli-mənəvi mirasının yaşadılmasında Ulu Öndər Heydər Əliyevin xidmətləri danılmazdır. Burada təqdim olunan Ümummilli Liderə aid hazırlanmış tammətnli elektron resursların önəmi ondadır ki, bundan müxtəlif qurumların, dövlət orqanları və təşkilatların bəhrələnmək imkanları olacaq. Ulu Öndər Heydər Əliyev müasir, müstəqil Azərbaycanın tarixində misilsiz, müstəsna rol oynamış şəxsiyyətdir. Ulu Öndər hər cəhətdən zamanını qabaqlayan liderlərdən idi. Heydər Əliyevin dahiliyi onda idi ki, o, bir çoxlarının vaxtında dərk edə bilmədiyi, anlaya bilmədiyi mətləbləri, hədəfləri öz uzaqgörənliyi sayəsində zamanında həll edə bilib. Bunun da sayəsində biz bu gün müasir, inkişaf etmiş, güclü bir dövlətdə yaşayırıq”.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivinin direktoru Elmira Ələkbərova deyib: ”Ümummilli Liderin irsi o qədər geniş və böyükdür ki, onun öyrənilməsi və araşdırılması üçün böyük İnstitutlar lazımdır. Ulu Öndər haqqında hansısa araşdırma aparmaq, məqalə yazmaq və layihə üzərində işləmək böyük bir məsuliyyət tələb edir. Bu özlüyündə bir günün işi deyil, bunun hazırlanmasına illər lazımdır. Bu gün fəxr edirik ki, Ümummilli Lider Heydər Əliyev kimi rəhbərimiz olub və o, özünün üstün şəxsiyyəti, hər hərəkəti ilə daim bizə örnəkdir. Bu gün də Ulu Öndərin layiqli davamçısı İlham Əliyev onun vəsiyyətlərini, ideyalarını layiqincə həyata keçirir. Biz xoşbəxt xalqıq ki, belə bir dövlətdə yaşayırıq və belə bir zəngin tariximiz var”.

Sonra Ümummilli Lider Heydər Əliyevin həyat və yaradıcılığından bəhs edən videoçarx nümayiş olunub, həmçinin Ulu Öndərin anadan olmasının 100 illiyinə həsr olunmuş geniş foto və kitab sərgilərinə baxış keçirilib.

## Heydər Əliyevin görmək istədiyi Azərbaycan: firavan, qalib və güclü!



*Elnur Allahverdiyev, Milli Məclisin deputatı*

Aprelin 23-də Azərbaycanın Ermənistanla sərhədində, Laçın ərazisində sərhəd-keçid məntəqəsi quruldu. Bununla da dövlətimizin bütün sərhədləri və ərazi bütövlüyü bərpa olundu. 30 il bundan öncə, 1993-cü ildə xalqımızın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu öndər Heydər Əliyevin ən böyük arzusu məhz bu idi: müstəqil, bütün ərazisi boyü suverenliyi təsbit olunmuş, işğaldan azad edilmiş torpaqlarında müqəddəs üçrəngli bayraqlarımızın dalğalandığı güclü Azərbaycan!

Bunun üçün dövlətimiz uzun və hamar olmayan yol qət etməli idi. Vətəndaş müharibəsinin qarşısı alınmalı, qanunun hökm sürdüyü, siyasi-hüquqi həyatın sanksiyalaşdırıldığı sistem bərqərar olmalı, milli təhlükəsizliyimizə qarşı yönəlmiş təhdidlər neytrallaşdırılmalı və iqtisadi sabitliyə, əhalinin rifah halının təmin edilməsinə yönəlmiş quruculuq prosesinə start verilməli idi. Bu yolun mürəkkəb, uzun və təbii ki, risklərlə dolu olmasına baxmayaraq, onun işıqlı sonuna həm Ümummilli lider inanırdı, həm də onun arxasında duran xalqımız. Bu günün reallığı xalqımızın Ulu öndərə hədsiz etimad və etibarı ilə nə qədər müdrik və uzaqgörən olduğunun göstəricisidir. Mayın 10-da xalqımız Ümummilli lider Heydər Əliyevin 100 illiyini qeyd edəcək. Heydər Əliyev ömrünün böyük hissəsini Azərbaycan və xalqımız naminə fəda edib. 1969-cu ildə, hələ ittifaq dövründə Azərbaycanın başına gələn Heydər Əliyev müstəqil statusda yaşaya biləcək bir respublikanın yaranmasına çalışıb və bu istiqamətdə miqyaslı uğurlara imza atıb. Xalqımızın maarifl ənməsi, yüksək savadlı elmi potensialın formalaşması, bütün sahələrdə ixtisaslı mütəxəssislərin hazırlanması, Azərbaycanın geridəqalmış aqrar respublikadan qabaqcıl sənaye kompleksinə malik ölkəyə çevrilməsi üçün böyük əmək sərf edib. Bütün bunlar bugünkü müstəqil Azərbaycanın yaranması və ayaqda durması üçün bazis, özül rolunu oynayıb. Məhz bu bünövrə hesabına da xalqımız ötən əsrin 90-cı illərində Heydər Əliyevin rəhbərliyi ilə gənc, müstəqil dövlətçiliyimiz qarşısında olan təhdidlərə sinə gərməyi bacarıb, suverenliyimizi qoruyub saxlamağa müvəffəq olub. Mən hər zaman çıxışlarımda gənclik illərimi xatırlayıram. Ulu öndər 1993-cü ildə xalqımızın çağırışı ilə Bakıya gələndə mənim 15 yaşım var idi. Bütün həmyaşıdlarım kimi,mənim də gəncliyim həmin mürəkkəb dövrə təsadüf edib. Bakı küçələrində silahlı şəxslər, ermənilərin işğal etdiyi torpaqlarımızdan Bakıya və ölkəmizin müxtəlif rayonlarına pənah gətirmiş onminlərlə məcburi köçkün, yaranmış humanitar faciə. Heydər Əliyev bizi bu bəladan xilas etmək üçün Bakıya gələndə iqtisadi tənəzzül hökm sürür, inflyasiya dördrəqəmli göstəricilərlə ölçülürdü. Qarabağda və Şərqi Zəngəzurda erməni vəhşiliyindən canını xilas edib gəlmiş soydaşlarımızın çadır şəhərciklərində məskunlaşdıqları günləri unutmamışam. Suya, qidaya, ailəsini saxlamaq üçün maddiyata, işə ehtiyacı olan vətəndaşlarımızın yeganə ümidi Heydər Əliyev idi. İndi onlar doğma torpağa, Şuşada, Laçında, Ağdamda və digər rayonlarımızda, kəndlərimizdə salınan yeni məskənlərə köçməyə hazırlaşırlar.

Ulu Öndərin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra ən önəmli amalı Qarabağda, Şuşada bayrağımızın dalğalanması olub. Şuşanın Heydər Əliyev üçün xüsusi önəmi var idi. Sovetlər dönəmində Moskvanın arxasında gizlənib Şuşanın erməniləşdirilməsi üçün xain planlar quran ermənilərin qarşısını Heydər Əliyev alırdı. Şuşanı belə demək mümmündürsə, yenidən xalqımıza Ulu öndər bəxş etmişdi. İllər keçəndən sonra mədəniyyətimizin beşiyi olan bu qala şəhəri erməni işğalından bu şanlı yolun davamçısı olan Müzəffər Ali Baş Komandan İlham Əliyev bizə qaytardı. Rəhbərlik etdiyi qalib ordu ilə.

Azərbaycan bu gün tarixinin ən möhtəşəm çağını yaşayır. Modern iqtisadiyyatı, güclü ordusu və gələcəyə inamla baxan vətəndaşı ilə. Biz dövrümüzdə indiki gəncliyin malik olduğu imkanların onda birinə sahib olmamışıq. Gənclərimizin savad dalınca dünyanın dörd bir yanına getmək, təhsil almaq imkanı var. Müsir təhsilli gənclər ölkəmizə qayıdıb bütün sahələrdə aparıcı müxtəxəssisə çevrilirlər. Müstəqilliyimizin əsası və məhz budur - savadlı nəsil. Bu ənənənin əsasını vaxtilə Ulu öndər hələ ittifaq dövründə qoymuşdu. Bu gün aparıcı vəzifələrə yeni vizyonlu gənc nəsil təmsilçilərini təyin etməklə, onlara etibar göstərməklə Prezident İlham Əliyev illər sonrakı Azərbaycanın rifahının əsasını qoyur.

Ulu öndərin ”Müstəqilliyimiz əbədidir, dönməzdir” şüarı müstəqilliyimizin başlıca prinsipidir. Heydər Əliyev ideyaları əsasında qurulan dövlətçiliyimiz Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə bu prinsipi inamla həyata keçirir. Azərbaycan nəinki regionda, dünyada çox ciddi dövlət, etibarlı tərəfdaş imicinə malikdir. Bu gün biz Avropanın 10-dək ölkəsininin enerji təhlükəsizliyində mühüm rol oynayır, transmilli layihələrin aparıcı bəndi qismində, bütün bölgənin rifah lokomotivi rolunda çıxış edirik. Ərazi bütövlüyümüzü və tarixi ədaləti bərpa etməklə böyük nüfuz sahibinə çevrilmişik. İşğaldan azad edilmiş ərazilərimiz sürətlə bərpa olunur, əhalimiz ata-baba məskənlərinə dönməyə hazırlaşır. Bu gün biz məhz Heydər Əliyevin görmək istədiyi və bunun üçün çalışdığı Azərbaycanda yaşayırıq: firavan, qalib və güclü!

# 1941-1945: YAŞANAN TARİX

**Ümummilli Lider Heydər Əliyev: "İkinci dünya müharibəsinin bir tərəfdən dəhşətli dağıntılar, insanların həlak olması, digər tərəfdən dünyanın yenidən dəyişməsi baxımından bəşər tarixində öz yeri var. Bu müharibədə çox xalqlar iştirak edib. Azərbaycan xalqı da o vaxt mənsub olduğu ölkəni, Vətəni müdafiə etmək, dünya mədəniyyətini mürtəce qüvvələrdən xilas etmək üçün bu müharibədə iştirak etmişdir."**

1941-ci ildə Azərbaycan sovet ittifaqının əsarətində inləyən 15 müttəfiq ölkədən biri idi. 1918-ci ildə qanımız bahasına əldə etdiyimiz müstəqilliyimiz sayəsində yaranan Xalq Cümhuriyyəti 23 ay sonra devriləndən sonra Azərbaycanda sovet hakimiyyəti qurulmuş, biz bu hakimiyyətin qanunları çərçivəsində yaşamağa başlamışdıq. Bu, 70 il davam etdi.

1941-ci ildə başlanan İkinci Dünya Müharibəsində bu müttəfiqlərin hər biri kimi, Azərbaycan xalqı da öz Vətənini müdafiə etmək üçün mübarizəyə qalxmışdı. Çünki faşist Almaniyası Bakıya qədər irəliləməyi planlaşdırmışdı. Sual oluna bilər ki, nə üçün? Ona görə ki, Almaniya digər müttəfiqlərdən fərqli olaraq Azərbaycanın sərvəti barədə məlumata malik idi. Və bilirdi ki, Rusiya bu müharibəni Bakı nefti hesabına udacaqdı. Bu səbəbdən də Bakıya qədər irəliləyib buna imkan verməməyə can atırdı. Belə olan vəziyyətdə isə təbii ki, Azərbaycanın mərd övladları öz Vətənlərinin müdafiəsinə qalxacaqdılar. Yəni məntiqlə düşünəndə biz sovet hakimiyyətinin tərkibində idiksə, bunu etməyə də bilməzdik. Çünki dolayısı ilə bunun ağır nəticələrini yenə də biz yaşamalı olacaqdıq. Bu səbəbdən də azərbaycanlılar İkinci Dünya Müharibəsində böyük fədakarlıqlar göstərdilər. Bakı nefti isə Rusiyanın qələbə qazanmasında əsas amil oldu. Bütün bunlar yaşanan tarixidr. Yaşandığı üçün də yaşadılmalıdır.

## Fədakarlıq nümunəsi

1941-1945-ci illər müharibəsində Azərbaycanın mərd oğul və qızları xalqımızın ən ali keyfiyyətini - fədakarlığını, vətənpərvərliyini, sarsılmaz mərdliyini nümayiş etdirmişlər. Dəhşətli müharibənin başlandığı ilk gündən səfərbərlik elan olunmuş, on minlərlə Azərbaycan oğul və qızı döyüş cəbhəsinə könüllü göndərilmək üçün ərizə vermişdir. Arxa cəbhədə isə yaşlı kişilər və respublikanın bütün iş qabiliyyətli qadınları çalışır, xalq təsərrüfatının bütün sahələrində döyüşə gedənləri əvəz edirdilər.

1941-1945-ci illərdə 700 minə yaxın azərbaycanlı, başqa sözlə, respublika əhalisinin hər 5 nəfərindən biri cəbhəyə yollanmış, onların isə 450 min nəfəri və ya 65 faizi orden və medallarla təltif olunmuş, 130 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Müharibədə iştirak etmiş soydaşlarımızın təxminən yarısı həlak olmuş, azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 223-cü və 77-ci diviziyalar şərəfli döyüş yolu keçmişdir. 223-cü Diviziya Macarıstan və Yuqoslaviyanın faşistlərdən təmizlənməsində qəhrəmanlıq göstərmiş, 416-cı Diviziyanın əsgərləri isə Berlində qələbə bayrağını ilk qaldıranların sırasında olmuşlar.

Ordunun ehtiyacını ödəmək üçün xalqımız arxa cəbhədə də misilsiz əmək hünərləri göstərmiş, gecə-gündüz bilmədən çalışmışdır. Qadınlar qızıl zinət əşyalarını təhvil verərək cəbhəyə köməklik göstərmişlər. Onlar həmçinin qiymətli ev əşyalarını da cəbhəyə köməklik üçün əsirgəməmişlər. Bütün bunlar isə xalqımızın qədim adət-ənənələrindən, mentalitetindən irəli gəlirdi. Axı biz tarixin bütün dönəmlərində kollektivçiliyimizlə, həmrəyliyimizlə, paylaşmağımızla, yardımlaşmağımızla diqqəti çəkmişik. Qonşularımız da, qonaq gələnlərimiz də əsrlər öncə bu keyfiyyətlərimizin şahidi olmuşlar. Elə buna görə də xalqımız başqa cür yanaşa bilmirdi bu müharibəyə. Kimin əlindən nə gəlirdisə, köməkliyini göstərirdi.

## Həm canımızla, həm sərvətimizlə...

Bakıda hasil edilən neft müharibədə qələbənin qazanılmasına böyük töhfə vermişdir. O illərdə Sovet İttifaqında hasil olunan neftin dörddəüç hissəsi, aviasiya benzininin və yüksəkkeyfiyyətli sürtgü yağlarının 85-90 faizi Azərbaycanın payına düşürdü. Faşizm üzərində qələbənin təmin edilməsində həlledici rol oynamış sovet ordusunun tank və təyyarələrinin tam əksəriyyəti Azərbaycan neftinin hesabına hərəkətə gətirilirdi. Bakı nefti olmasaydı, bu müharibədə hərbi əməliyyatları uğurla başa çatdırmaq mümkün olmazdı. Ona görə də 1941-1945-ci illər müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri, habelə arxa cəbhədəki fədakarlıqları hər zaman fəxrlə xatırlanır.

Faşizm üzərində qələbədən 78 il ötür. Faşizmə qarşı mübarizədə ön cəbhələrdə fəallıq göstərən, sağlamlığını itirən, doğma yurda sinəsi orden və medallarla qayıdan həmyerlilərimiz bizim üçün qürur və iftixar mənbəyidir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev deyirdi: "Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğıya və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur".

## Ulu Öndər veteranlara həmişə qayğı bəsləmişdir

Ulu Öndər Vətən yolunda xidməti olan insanlara heç vaxt qayğısını əsirgəməmişdir. Ötən əsrin 70-ci illərində veteranlara göstərilən qayğı Ümummilli Liderimiz siyasi hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra unudulmuş, 1941-1945-ci illər müharibəsi iştirakçılarına, Sovet İttifaqı qəhrəmanlarına və arxa cəbhədə çalışan veteranlara qarşı biganə, laqeyd münasibət göstərilmişdir. Hətta ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə hakimiyyətdə olanlar 9 May - Qələbə Gününü qeyd etməmək barədə rəsmi tapşırıq da vermişdilər. Ancaq Ümummilli Lider Heydər Əliyevin rəhbərlik etdiyi 1990-1993-cü illərin Naxçıvanında veteranlar qayğı ilə əhatə olunmuş, 9 Mayla bağlı tədbirlər keçirilmişdir. Ümummilli Liderimizin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra 9 may respublikamızda Qələbə Günü kimi rəsmiləşdirilmiş, dövlət bayramları sırasına daxil edilmiş, müharibə veteranlarının sosial müdafiəsi ildən-ilə gücləndirilmişdir. Onların xatirəsinin əbədiləşdirilməsi istiqamətində sistemli və ardıcıl tədbirlər görülmüş, imtiyazları və statusları bərpa olunmuşdur.

Müharibə veteranları bu gün də hərtərəfli dövlət qayğısı ilə əhatə edilmişlər. Ulu Öndərimizin yolunu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev 1941-1945-ci illər müharibəsi iştirakçılarına, arxa cəbhə veteranlarına xüsusi diqqət və qayğı göstərir. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 aprel tarixli "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncamı ölkəmizdə 3 min 538 nəfərə şamil edilib. İkinci Dünya müharibəsində Qələbənin 78-ci ildönümü ilə əlaqədar həmin müharibənin iştirakçısı olmuş 51 nəfərin hər birinə 1500 manat, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslər, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçiləri, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslər, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarından ibarət 3 min 487 nəfərin hər birinə isə 750 manat məbləğində birdəfəlik yardım verilib. Birdəfəlik ödəmə onların bank hesablarına köçürülüb. Birdəfəlik maddi yardımların verilməsi üçün dövlət başçısının Sərəncamı ilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan 2,9 milyon manat vəsait ayrılıb.



Qeyd edək ki, artıq 20 ildir ki, İkinci Dünya müharibəsi iştirakçıları və yuxarıda vurğuladığımız kateqoriyalardan olan insanlar bu cür qayğı ilə əhatə olunurlar. 1941-1945-ci illər İkinci Dünya müharibəsində iştirak etmiş bəzi kateqoriyalardan olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması, müharibə əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi avtonəqliyyatla təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında sərəncamlar bu kateqoriyadan olan insanlara göstərilən qayğının bariz nümunəsidir.

## Onların xatirəsi xalqımız üçün əzizdir

Azərbaycan xalqı 1941-1945-ci illər müharibəsində şərəfli döyüş yolu keçmiş oğul və qızlarımızın tarixi şücaətlərini, habelə arxa cəbhədə fədakarlıqla çalışanların xidmətlərini heç vaxt unutmayacaqdır. Çünki bu beşillik zaman kəsiyi bütün acıları, ağrıları ilə yaşanıb. Minlərlə oğullarımız 1941-ci ildə müharibəyə yollanıb. Onlar arxada bir ailəni, həyat yoldaşını, nişanlı qızı, sevgilini buraxıb gediblər. Qayıdanlar sağlamlıqlarını itirsələr də, yenə də ata-ana, bacı-qardaş, həyat yoldaşı, övlad, sevgili hicranını vüsal edə biliblər. Lakin qayıtmayanlarla birlikdə bütün bu arxada qoyduqlarına qovuşmaq hissi, ürəklərindəki min bir istək və arzu Rusiyanın ucsuz-bucaqsız torpaqlarına gömülüb. Nə arzular ürəklərdə dəfn olunub. Nə göz yaşları məktublarda saralıb, nə nisgillər kağız parçalarına tökülüb. Nə gözlər illərlə yollarda qalıb. Neçə-neçə analar hər qapı döyüldüyündə "bəlkə yoldaşımdır, oğlumdur gəlib",- deyə qapıya yaxınlaşıb. Və ümidi elə oradaca yenidən qırılıb.



Axı biz müharibələr, acılar, itkilər görmüş bir xalqıq. Şəhidin, qazinin acısını yaşamış bir xalqıq. Belə isə eyni taleni yaşayan insanları unutmaq olarmı? 90-cı illərdə hakimiyyətdə olanlar sərsəmləsələr də, bunun Ulu Öndərimiz tərəfindən qarşısı alındı. Yoxsa bu gün bunun əzabını çəkərdk. Birinci və İkinci Vətən müharibələrində itirdiyimiz balalarımızı, qazilərimizi hər an ananda İkinci Dünya müharibəsinə gedib qayıtmayan minlərlə övladımızın taleyi ilə bağlı tarixin silinməsini özümüzə bağışlaya bilməyəcəkdik.

Bu gün onlara qayğı ilə yanaşılması, anılması üçün Ümummilli Liderimizə borcluyuq. O, böyük bir tarixi sərsəmlərdən xilas etdi, qorudu. Odur ki, Ulu Öndər hər zaman Azərbaycan xalqının qəlbində yaşayacaq. Həm də böyük minnətdarlıq hissi ilə.

İkinci Dünya müharibəsində həlak olanların, yaralananların, zəhməti ilə kömək olanların həyat yolu bugünkü və gələcək nəsil üçün nümunədir. Elə bu nümunə ilə tərbiyə etdiyimiz gəncliyimiz 2020-ci ildə 44 günlük Vətən müharibəsində böyük vətənpərvərlik və fədakarlıq göstərdilər. Vətəni qorumaq nümunəsi nümayiş etdirdilər. Hər bir tarixi yaşandığı üçün qorumaq gələcək nəsillərin borcudur. Bu gün həmin tarixi günləri anmaqla, xatırlamaqla, tədbirlər keçirməklə vətəndaş olaraq vəzifəmizi yerinə yetiririk. Həmişə də belə davam edəcəyik. Çünki onların hər birinin xatirəsi xalqımız üçün əzizdir.

***Mətanət Məmmədova***

# Böyük Qayıdış: yeni həyat və hədəflər



Azərbaycanın dilbər guşəsi Qarabağımız müasir dünyamızda yeni dövrünü yaşayır. 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad olunandan sonra Qarabağımız müasir dünyanın ahəngində qurulur, ona yeni həyat verilir. Bu gün Zəfər qazanan Azərbaycan tarixin dönəmində inkişaf yolu keçmiş Qarabağımızda böyük quruculuq işlərinə başlanılıb. Bu gün Şuşamızda, Zəngilanda, Laçında və digər ərazilərdə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Tezliklə işğaldan azad olunan hər bir şəhər, qəsəbə və kənd müasir məkana çevriləcəkdir. Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın bu ərazilərimizə səfərləri zamanı burada görülən işlərlə tanışlıq və təməlqoyma mərasimlərinin keçirilməsi böyük abadlıq-quruculuq işlərinin davamı olmaqla yanaşı, burada görülən işlərin sürətlə aparıldığını bir daha təsdiqləmiş olur. Bəli, bu gün Azərbaycan tamamilə yeni bir dövrə qədəm qoyub. Biz artıq işğaldan azad edilmiş torpaqlara qayıdırıq və həmin yerlərdə yeni bir həyat başlayır. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal edilmiş ərazilərimiz dağıdılmış, tarixi dini mədəniyyət ocaqlarımız xarabazarlığa çevrilmişdir. İşğal altında yerləşən yaşayış evləri, təhsil, sənaye və kənd təsərrüfatı obyektləri ilə yanaşı, yüzlərlə mədəniyyət müəssisəsi, o cümlədən 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalareyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, Qarabağ münaqişəsinə qədər dövlət qeydiyyatına alınan 700-dən artıq tarix və mədəniyyət abidəsi erməni vandalizminin qurbanına çevrilib.

## TORPAQLARIMIZDA ABADLIQ-QURUCULUQ İŞLƏRİ

Bu gün 30 ilə yaxın işğal altında olan torpaqlarımızda abadlıq-quruculuq işləri vüsət alıb. Hazırda qarşıda dayanan ən mühüm vəzifələrdən biri də işğaldan azad olunan ərazilərdə təhsil ocaqlarının tikintisidir. İşğaldan azad edilmiş ərazilərdə təhsilin inkişafı ilə bağlı tədbirlər xüsusi əhəmiyyət kəsb edir.

Bildiyimiz kimi, Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "Ağalı kənd" layihəsi çərçivəsində 288 şagird yerlik tam orta məktəb inşa olunub. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəbrayıl şəhərində inşa edilən akademik Mehdi Mehdizadə adına tam orta məktəbin binasında aparılan tikinti işlərinin gedişi ilə tanış olub. 960 yerlik yeni məktəb binasının inşasına 2021-ci ilin oktyabrında başlanılıb. Burada şagirdlərin təhsili, təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq üçün hərtərəfli şərait yaradılacaq. Məktəbin həyətində geniş idman meydançası yaradılacaq ki, bu da sağlam gənc nəslin yetişməsi üçün vacib amillərdəndir.

Bir sözlə, doğma torpaqlarına geri dönən cəbrayıllı şagirdlər 145 yaşlı orta ümumtəhsil müəssisəsinin ən müasir tələblərə cavab verən yeni binasında təhsil alacaqlar.

Əlbəttə ki, dövlət başçısının işğaldan azad olunan ərazilərimizə hər bir səfəri tarixi hadisələrlə yadda qalır və hər ötən gün bizim Qayıdışımızı sürətləndirir. Belə ki, dövlət başçısının Cəbrayıl rayonuna səfəri çərçivəsində bu ərazidə Horovlu kəndinin təməlini qoyması fikrimizi əsaslandırır. Layihələndirilən ümumi ərazi 248,1 hektardır. Perspektivdə bu kənddə 3470 nəfərin (867 ailə) yaşaması nəzərdə tutulub. Baş plana əsasən, köhnə Horovlunun ərazisini əhatə edən bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Çapand, Safarşa, Fuğanlı və Həsənqaydı kəndləri ilə birlikdə layihələndirilib. Birinci mərhələdə Horovluya 1395 nəfərin köçürülməsi üçün 334 fərdi ev tikiləcək. İnşa ediləcək evlər iki, üç, dörd və beş otaqlı olacaq. Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və çoxfunksiyalı bina, bazar kompleksi, idman sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı, qonaq evinin tikintisi planlaşdırılıb. Əhalinin məşğulluğunun təmin edilməsi üçün zəruri tədbirlər də görüləcək.

Kəndin dayanıqlı su təchizatını təmin etmək məqsədilə burada əvvəllər mövcud olmuş kəhrizlərin bərpası üçün layihə də həyata keçirilir.

## ŞÜKÜRBƏYLİ KƏNDİNDƏ 1042 AİLƏ MƏSKUNLAŞACAQ

Cəbrayıl rayonunun Şükürbəyli kəndinin təməlinin qoyulması bu ərazilərdə tezliklə yeni həyatın başlanacağından xəbər verir. Şükürbəyli kəndində 1042 ailənin məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 298 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 184 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kənddə 635 fərdi evin tikilməsi nəzərdə tutulur. Baş plana əsasən, bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Dəjəl, Şıxəliağalı kəndləri və Mahmudlu qəsəbəsi ilə birlikdə layihələndirilib. Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və çoxfunksiyalı bina, ticarət mərkəzi, bazar, idman sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı, məscid, qonaq evinin inşası planlaşdırılıb. Burada da sakinlərin məşğulluğunun təminatı ilə bağlı bütün zəruri tədbirlər görüləcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Cəbrayıl rayonunda Xudafərin qəsəbəsinin təməlinin qoyulması tədbirində iştirakı o deməkdir ki, işğaldan azad olunan hər bir ərazimizdə əzəli sakinlər tezliklə azad və rahat bir şəraitdə yaşamağa başlayacaqlar. Qəsəbə Azərbaycan xalqı üçün tarixi əhəmiyyət daşıyan Xudafərin körpüsünün yaxınlığında, yeni dəmir yolu xəttindən və avtomobil yolundan 7 kilometr məsafədə salınır. Qəsəbənin layihələndirilən ümumi ərazisi 25 hektardır. Baş plana əsasən, gələcəkdə burada 149 ev tikiləcək. Qəsəbədə birinci mərhələdə 20 evin inşası nəzərdə tutulur. Burada iki, üç, dörd və beş otaqlı fərdi evlər tikiləcək. Hər evin həyətyanı sahəsi 600 kvadratmetr təşkil edəcək. Qəsəbəyə birinci növbədə 77 sakin köçürüləcək. Xudafərin qəsəbəsində məktəb, uşaq bağçası, inzibati bina, məscid, bazar, çoxfunksiyalı bina (ticarət müəssisələri, tikinti materiallarının satış zonası, ictimai qida müəssisələri və s.), mədəniyyət evi, "Karvansaray" hotel və icma evi də yaradılacaq. Bundan başqa, Araz çayının sahilində və Xudafərin körpüsünün yaxınlığında parkın salınması da nəzərdə tutulub.

## DƏDƏLİ KƏNDİNDƏ TİKİNTİ İŞLƏRİ 2025-Cİ İLİN NOYABRINDA BAŞA ÇATDIRILACAQ

Füzuli rayonunun Dədəli kəndinin təməlinin qoyulması mərasimini də qeyd etməliyik. Kəndin layihələndirilən ümumi ərazisi 314 hektardır. Bu kənddə 4495 nəfərin (1129 ailə) məskunlaşması nəzərdə tutulub. Tikiləcək 1050 fərdi evin hər birinin həyətyanı sahəsi 1200 kvadratmetr olacaq. Qeyd edildi ki, birinci mərhələdə Dədəli kəndində 1373 nəfərin yaşayacağı 327 fərdi ev tikiləcək.Kənddə çoxfunksiyalı inzibati bina, məscid və mərasim evi, yanacaqdoldurma məntəqəsi, aptek, idman klubu, tibb mərkəzi, 840 yerlik orta məktəb, 100 yerlik iki uşaq bağçası, istirahət və yaşıllıq zonaları, klub-icma mərkəzi və kitabxana, ticarət obyektləri, bazar fəaliyyət göstərəcək. Dədəli kəndi də tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət məqsədilə bu kənddə də alternativ enerjidən istifadə, istilik tutumlu evlərin layihələndirilməsi nəzərdə tutulub. Bu yaşayış məntəqəsində əhalinin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində olacaq. Kənddə tikinti işlərinin 2025-ci ilin noyabrında başa çatdırılması planlaşdırılır.

## BÖYÜK QAYIDIŞ ƏZƏLİ SAKİNLƏRİN DOĞMA TORPAQLARINA GERİ QAYIDIŞINI SÜRƏTLƏNDİRİR

Dövlət başçısının "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Füzuli Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin açılışında iştirakı, Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməlini qoyması və s. Böyük Qayıdışımızı sürətləndirir.Bu gün Azərbaycan keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Qarabağın abadlaşması və yenidən qurulması istiqamətində irimiqyaslı layihələr reallaşdırılır, islahatlar həyata keçirilir. Yeni mərhələdə qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilmişdir. Bu prioritetlərə söykənən Azərbaycan Prezidentinin 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əks olunmuş "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə dövlət başçısının 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edildi. Dövlət Proqramının əhatə dairəsini Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilər təşkil edir. Dövlət Proqramında əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər prioritet olaraq əksini tapıb. Dövlət Proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması kimi həyata keçiriləcək tədbirlər əksini tapıb. Bildiyimiz kimi, ərazilərin azad olunmasından dərhal sonra genişmiqyaslı yenidənqurma işlərinə start verilmişdir. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq, yeni şəhər və kəndlər salır. 2021-ci ildə bu məqsədlə dövlət büdcəsindən 1,3 milyard, 2022-ci ildə isə 2,2 milyard ABŞ dolları məbləğində vəsait ayrılıb. Bütün bölgələrdə elektrik enerjisi ilə bağlı layihələr qısa müddət ərzində icra ediləcək. İçməli su və bununla bağlı işlər, kənd təsərrüfatı işləri, yüzlərlə məktəb, xəstəxana, idman kompleksləri, mədəniyyət ocaqlarının inşası, habelə digər irihəcmli işlər Böyük Qayıdış çərçivəsində reallaşdırılacaqdır.

Yaşıl enerji zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı layihələr həllini tapacaqdır. Məlumdur ki, birinci pilot layihə olan "Ağıllı kənd" layihəsi Zəngilanda icra edildi. 2022-ci ildə Ağalıya köç başladı. Bu gün Ağalı kəndi dünyanın ən müasir kəndlərindən birinə çevrilib. Əlbəttə ki, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və sonrakı mərhələlərdə dayanıqlı inkişafına nail olunması üçün önəmli strateji istiqamətlərdən biri bölgənin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi vasitəsilə əhalinin, infrastruktur və istehsal obyektlərinin, həmçinin strateji əhəmiyyətli tikililərin və binaların təhlükəsizliyinin təmin edilməsidir.

İşğaldan azad olunmuş ərazilərimizin hər biri, məhz Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Ağalı kimi müasir məkana çevriləcək və buranın əzəli sakinləri rahat, təhlükəsiz bir şəraitdə bu yerlərdə əbədi olaraq yaşayacaqlar.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Heydər Əliyev və Azərbaycan gənc istedadların gözü ilə"

Şabran rayonunda Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan gənc istedadların gözü ilə" adlı yaradıcılıq sərgisi keçirilib. Tədbirdə Şabran rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov, rayonun idarə, müəssisə və təşkilat rəhbərləri, rayon ictimaiyyət nümayəndələri, məktəb kollektivləri və gənclər iştirak ediblər.





Rayonun gənc istedadlarının yaradıcılıq nümunələri nümayiş olunmuş, şerlər və nəğmələr dinlənilmişdir. Böyük marağa səbəb olan tədbirin sonunda müxtəlif ölkələrdə keçirilən idman yarışlarında qələbə qazanan gənc idmançılar və sərginin təşkilində xüsusi fəallıq göstərən bir neçə ümumtəhsil müəssisəsi Şabran rayon İcra Hakimiyyəti başçısının Fəxri Fərmanları ilə mükafatlandırılmışdır.

# Heydər Əliyev-100



# Heydər Əliyev 100 il

**Bildiyimiz kimi, 2023-cü ilin may ayının 10-daÜmummilli lider Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Bu münasibətlə cənab Prezident İlham Əliyevin sərancamı ilə ölkəmizdə 2023-cü il"Heydər Əliyev İli" elan edilib. Azərbaycanda və ölkəmizin hüdündlarında belə, "Heydər Əliyev İli" çərçivəsində ulu öndərin zəngin tarixi irsi, Azərbaycan qarşısında dəyərli və əvəzolunmaz xidmətləri yad olunmaqdadır. Bununla bağlı silsilə görüşlər, tədbirlər və konsert proqramları keçirilməkdədir.**

Belə bir deyim var: - "Dünyada tarix haqqında yazanlar çox olsa da, tarix yaradanların sayı azdır. Çünki tarix yaratmaq tarix yazmaqdan qat-qat çətin və məsuliyyətlidir". Bu insanların həyatı, taleyi, fəaliyyəti, məqsəd və məramları çox maraqlı, qeyri-adiliklə zəngin olduğu üçün onlar haqqında daha çox öyrənmək, daha çox düşünmək, bəzən də bu şəxsiyyətləri birbiri ilə müqayisə edib fərqləndirmək məcburiyyətində qalırsan.



*İlham Quliyev*
*YAP Yasamal rayon, SOCAR "Neftqazelmitədqiqatlayihə" İnstitutu üzrə ərazi partiya təşkilatının üzvü*

## Heydər Əliyev də elə həmin tarix yaradan müdrik insanlardan biri idi!

Ulu öndər Heydər Əliyev şəxsiyyətinin müdrikliyivə yüksək uzaqgörənlik bacarığı həm də ondan ibarət idi ki, O, SSRİ dövrünün sərt milliyətçilik qadağalarına baxmayaraq, hər zaman öz millətini düşünərək, xalqına qayğı göstərməyi bacarmışdı. SSRİ dağılandan sonra onun tərkibində olan respublikaların rəhbərlərindən heç biri Heydər Əliyevin yolunu keçə bilmədi. Yalnız Heydər Əliyev kimi bir insanın xalqına bağlı olması və xalqın da ona olan məhəbbəti, onu öz ölkəsində ikinci dəfə siyasi hakimiyyətə qaytara bildi.

Müasir Azərbaycanın müstəqilliyinin xilaskarı kimi yenidən vətəninə dönən və Azərbaycanın ziyalı elitasının ölkəmizə rəhbərlik etməyinə çağırışından sonra iqtidara qələn Heydər Əliyevin qayıdışı, Allahın müasir və müstəqil Azərbaycana bəxş etdiyi ən böyük hədiyyəsi idi.

Azərbaycan yenidən müstəqillik qazandıqdan sonra, o zaman ki, iqtidarda olanların səriştəsizliyi günü-gündən ölkəni yenidən dağılmağa doğru aparırdı. Artıq 1993-cü ilin ortalarında Azərbaycanda dərin siyasi və ictimai bir böhran hökm sürürdü. Ölkənin layiqli bir liderinə ehtiyacı var idi. Ölkəni bu böhrandan qurtarmaq üçün, xalqın ziyalı elitası məcbur qalıb Heydər Əliyevə üz tutdular.

1992-ci il, 16 oktyabr tarixində 91 nəfərdən ibarət bir qrup Ali Sovetinin deputatlarının və ziyalılarının Heydər Əliyevə müraciəti "SƏS" qəzetinin 43-cü buraxılışında "Azərbaycan Sizin sözünüzü gözləyir" başlığı ilə dərc edildi.

İnanın, həmin proseslərdə təkcə "91-lər" deyil, yüz minlərlə insan ürəyində Heydər Əliyevi sevirdi. Yalnız onu ölkəmizin lideri və başçısı kimi görmək istəyirdi. Bu insan üçün vətən, millət, xalq daha önəmli idi, nəinki şəxsi ambisiyalar.

Moskva şəhərində yaşayan Heydər Əliyev, 1990-cı il 20 Yanvar hadisələrindən sonra o zaman ki SSRİ hakimiyyətinə öz sərt narazılığını bildirərək, Azərbaycana döndü. Bakıdakı hakimiyyət onun vətənə dönüşünü xoş qarşılamasalar da o, doğma Naxçıvanına döndü və əhali tərəfindən çox böyük sevinclə qarşılandı. Az bir müddətdə o Naxçıvan Ali Məclisinə deputat, sonra isə sədr secildi. Həmin ərəfələrdə xalqın, ölkəni bu dəhşətli siyasi böhrandan qurtara biləcək yeni bir siyasi partiyanın yaranmasına ehtiyacı var idi.

1992-ci ilin noyabr ayında yeni "Yeni Azərbaycan Partiyası" adlı partiyanın təsis konfransı keçirildi və Heydər Əliyev həmin partiyanın siyasi lideri- sədri seçildi.

Artıq 1993-cü ilin iyul ayında Heydər Əliyev o zaman Naxçıvan MR Ali Məclisinin sədri və "Yeni Azərbaycan Partiyası"-nın sədri olaraq xalqın səsinə səs verərək Bakıya döndü. Həmin ilin oktyabırında isə Azərbaycan Respublikasının Prezidenti seçildi.

Heydər Əliyevin Azərbaycana xilasedici qayıdışı müstəqil tariximizin dönüş nöqtəsinə çevrildi, xalqın itirilmiş inamını özünə qaytardı və gələcəyə olan ümidlərini artırdı. Yeni hökumət qarşısında respublikanı davamlı böhrandan çıxarmaq, qonşu ölkələrlə gərgin münasibətləri bərpa etmək, iqtisadiyyatı ayağa qaldırmaq, ölkə daxilində sabitliyi təmin etmək, erməni təcavüzünün qarşısını almaq kimi çətin vəzifələr dururdu.

Ulu öndərimizin müdrikliyi, qətiyyəti, iradəsi sayəsində dövlət müstəqilliyimiz sarsılmaz və dönməz olmuşdur. Ümummilli liderimiz müstəqil dövlət qurmaqla yanaşı, eyni zamanda azərbaycanlıları birləşdirən milli təməlini - azərbaycançılıq ideologiyasını da yaratmışdır. Ulu öndər, hələ 1970-ci illərdən başlayaraq Azərbaycan Respublikasının ümumi inkişafına çox böyük töhfələrini vermişdir.

Heydər Əliyev bütün sahələrdə olduğu kimi, Azərbaycanın ən vacib və strateji sahəsi olan neft sənayesinə də böyük qayğı ilə yanaşırdı. O, hər zaman neftçi-alimlərin Azərbaycanın ümumi inkişafında rolunu çox yüksək qiymətləndirirdi. Ulu öndərtərəfindən, neft sənayesi və ümumiyyətlə bu sahədə aparılan elmi tədqiqatların və biliklərin artırılması, yüksək səviyyəli mütəxəssizlərin formalaşması üçün bir çox göstərişlər verilmişdir.

O vaxt neft hasilatının artırılması, yeni qurğuların işə düşməsi, Dərin Özüllər zavodunun məhz Azərbaycanda tikilməsi, Neftayırma zavodunun rekonstruksiyası, Elmi Tədqiqat institutlarının açılması və digər önəmli hadisələr Azərbaycanın neft potensialını yüksək dərəcədə möhkəmləndirmişdi.

1970-ci illərdə, əvvələr ("Dənizneftqazlayihə") sonralar "Neftqazlayihə" institutunun yaradılmasında və təməlinin qoyulmasında Ulu öndər Heydər Əliyevin böyük rolu olmuşdur. O bilirdi ki, elmsiz və elmi tədqiqatlarsız heç bir inkişafdan, tərəqqidən belə, heç təsəvvür etmək də mümkün deyildi.

Heydər Əliyevin Neft elminə göstərdiyi qayğı bununla bitmir. O, müasir Azərbaycanın yenidən rəhbərliyinə döndüyü dövr də belə, 1929-cu ildəyaradılmış və neft sənayesinin inkişafında böyük rolu olmuş əvvələr "AzərETNÇİ" İnstitutu, sonralar müxtəlif dövrlərdə adı dəyişdirilərək sonda "Elmi-Tədqiqatlar" İnstitutu adlanan elm ocağlarından birinin 1990-cı illərdə bağlanmasının qarşısını almaqla elmi tədqiqatların və bu institutun ölkəmiz üçün nə qədər yüksək əhəmiyyətli olduğunu və yüksək dəyər verdiyini növbəti dəfə sübüt etmiş oldu.

Elmi Tədqiqat İnstitutlarının önəmini biz, bu gün də hiss edirik. Nəinki Respublika daxilində və keçmiş postsovet respublikalarının ərazilərində, hətta daha da geniş miqyasda belə yüzlərlə neft-qaz yataqlarının açılmasında həmin elm ocağları öz elmi tövhələrinivermək dədir.

Əgər vaxtilə Elmi Tədqiqat İnstitutlarının fəaliyyətləri aparılmasaydı, dərin özüllər zavodu Azərbaycanda yox, başqa bir yerdə tikilsə idi və ümumiyyətlə neft sənayesinin inkişafına təsir edəbiləcək digər strateji əhəmiyyətli obyektlər olmasaydı o zaman bizim müstəqillik dövrümüzdə də, xarici tərəfdaşlarla işlərimiz ləng gedə bilərdi. O illərdə yaradılmış potensial, bu gün də bizim neft potensialımızı gücləndirməkdədir.

Yeni neft strategiyasının uğurla reallaşdırılmasının nəticəsi olaraq, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqavilələrinin imzalanması və digər mühüm layihələrin gerçəkləşdirilməsi təmin edilməklə, irimiqyaslı xarici investisiyaların respublikamıza axınına şərait yaradıldı, uğurlu makroiqtisadi sabitləşmə siyasəti nəticəsində infilyasiyanın artım tendensiyasının qarşısı alındı, Azərbaycanın dünya iqtisadiyyatına hərtərəfli inteqrasiyası, eyni zamanda əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm addımlar atıldı.

Bu gün ölkə başçısı cənab İlham Əliyevin yürütdüyü dövlətçilik siyasəti, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf kursunun reallaşdırılmasını və doğma Azərbaycanımızın hərtərəfli tərəqqisini təmin etməkdədir.

Xüsusilə qeyd etmək istəyirəm ki, təsadüfi deyil ki, bu gun mənim çalışdığım elm ocağı, məhz Cənab Prezident İlham Əliyevin ata vəsiyyətlərinə, atanın yaratdığı varislərinə sadiqlik göstərməsi, neft elminə yüksək dəyər verməsi, 2009-cü ildə hər iki ("Neftqazlayihə" institutu və "Elmi-Tədqiqatlar" İnsitutu) Elm ocağlarını birləşdilərək, SOCAR, "Neftqazelmitədqiqatlayihə" İnstitutunun yaradılmasına səbəb olmuşdur. Bu Elm ocağı bu gün də elmi tərəqqidə öz tövhələrini layiqincə verməkdədir.

Bunlar hamısı, Heydər Əliyevin və layiqli davamcısı cənab Prezident İlham Əliyevin uğurlu, qayğıkeş addımlarından nümünə olaraq yalnız mən şəxsən çalışdığım neft sanayesinə etdiyi qayğılardan birini kimi qeyd etmək olar. Bu kimi nümunələrin yüzlərlə sayını bütün sahələrdə belə saysaq sayıb qurtara bilmərik.

Odur ki, Azərbaycanın müstəqil inkişaf tarixi ərzində ulu öndər Heydər Əliyev və ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən görülmüş böyük işlər, həm daxili siyasətdə, həm də dünya dövlətləri birliyində ölkəmizin öz layiqli yerini tutması istiqamətində həyata keçirilən düşünülmüş tədbirlərin nəticəsi kimi, böyük uğur kimi dəyərləndirilməkdədir.

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanı daha xoşbəxt, insanları daha firavan görmək istəyirdi. Ümummilli lider dəfələrlə xatırladırdı: "İnsan üçün hər şeydən əvvəl onun vətənidir, torpağıdır. Bir çox əsrlər bu vətənin azadlığının, müstəqilliyinin arzusunda olmuşuq. İndi buna nail olmuşuq və bunu əziz tutmalıyıq".

Bu sözlər Azərbaycanın dövlətçilik tərəfinə yeni və unudulmaz bir səhifə yazan ölməz rəhbərin - Heydər Əliyevin nəsillərə ən müqəddəs tövsiyəsi kimi səslənir. Tarix zamanın sınaqlarında, dolaylarında yaranır. Zaman dəyişsə də tarix əbədidir. Bu dünyada yeni bir tarix yaradan dahi insan Heydər Əliyev də əbədidir, ölməzdir. Nə qədər bəşəriyyət var, Azərbaycan, azərbaycançılıq var, müdrik insanları qiymətləndirənlər var, Heydər Əliyev yaşayır və yaşayacaqdır!

# 9 may - alman faşizmi üzərində Qələbədən 78 il ötür

## Prezident İlham Əliyev: "Biz ümumi Qələbəmiz uğrunda canlarından keçənlərin müqəddəs xatirəsini ehtiramla yad edirik"




9 may - alman faşizmi üzərində qələbə tarixidir. Həmin tarixdən düz 76 il ötür. Elə də qısa zaman deyil. Gör neçə bahar, qış ötüb. Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmiş azərbaycanlıların qəhrəmanlığı, şücaəti yaddaşlarda həmişə yaşayır. Qürurlanırıq ki, minlərlə vətən oğlunun İkinci Dünya müharibəsindəki qəhrəmanlığı müxtəlif xalqlar tərəfindən öyrənilir və xalqımıza məxsus ərənlik bir nümunəyə çevrilib. Müharibə zamanı göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşının Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi əlbəttə ki, bu savaşda Azərbaycan oğullarının rolunun böyük və əvəzsiz olduğunu göstərməklə yanaşı, igidliyindən də söz açır. Əlbəttə ki, müharibədə Azərbaycanın müsəlləh əsgərləri silaha sarılaraq alman faşistləri ilə üz-üzə dayandılar. Gərgin bir döyüş yolu keçdilər. Müharibə başlanandan keçən qısa müddət ərzində, Azərbaycan ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edildi, respublikanın 700 mindən çox oğlan və qızları cəbhəyə yola salındı. Onların təxminən yarısı döyüş meydanlarında həyatlarını itirdilər. 170 mindən çox əsgər və zabitimiz isə müxtəlif orden və medallarla təltif edilib.

### "AZƏRBAYCANLI LEYTENANT MƏCİDOVUN RƏHBƏRLİK ETDİYİ BİR QRUP DÖYÜŞÇÜ İSƏ BRANDENBURQ DARVAZALARI ÜZƏRİNƏ QƏLƏBƏ BAYRAĞINI SANCIB"

Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdi. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və digər şəhərlərin düşməndən azad edilməsində rəşadət göstərmiş oldular. Həmyerlilərimiz Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak etdilər. Xatırladaq ki, Berlinə ilk dəfə daxil olan hərbi hissələr içərisində 416-cı diviziyası da var idi. Azərbaycan Prezidenti İlham Əliyev müsahibələrinin birində qeyd edib ki, 416-cı diviziya Berlinin götürülməsində də fərqlənib: "Kayzer Vilhelm sarayını məhz bu diviziyanın döyüşçüləri tutublar. Azərbaycanlı leytenant Məcidovun rəhbərlik etdiyi bir qrup döyüşçü isə Brandenburq darvazaları üzərinə Qələbə bayrağını sancıb". Berlin uğrunda döyüşlərdə kapitan X.Gülməmmədovun batalyonu xüsusilə fərqlənib. Kayzerin sarayı üstündə Qələbə bayrağını ilk dəfə mayın 1-də sancanlardan biri leytenant Vahab Osmanov düşmən gülləsindən həlak olub. Brandenburq qapıları üstünə mayın 2-də qələbə bayrağını taxanlardan biri isə leytenant A.Məcidov və onun döyüşçüləri olublar. Bu tarixi qələbədə Azərbaycanın, onun övladlarının və neftinin əhəmiyyəti böyükdür. İkinci Dünya müharibəsində qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynamışdır. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının istifadə etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşürdü. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında uçuşlar həyata keçirən 7 min hərbi təyyarənin yanacaq təchizatında da mühüm rol oynadı. Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərərək, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəallıq göstərdi. 1941-1945-ci illərin alovunu Azərbaycanın hər bir vətəndaşı yaşıyıb. Müharibə illərində Azərbaycanın bütün iqtisadiyyatı da müharibə tələblərinə uyğun qurulmuşdu. Fəhlə və qulluqçular üçünüş günü 11-12 saata qaldırılmışdı. Məzuniyyətlər ləğv olunmuşdu. Ərzaq, gündəlik tələbat və çox işlənən sənaye məhsullarının satışıüzrə kartoçka sistemi tətbiq edilmişdi. Orduya səfərbər edilmiş işçilərin yerinə qadınlar və yeniyetmələr cəlb olunmuşdu. Bütün sənaye sahələri cəbhə üçün məhsul istehsal etməyə başlamışdılar. Azərbaycan hərbi əməliyyat meydanına çevrilməsədə, müharibənin əvvəlindən axırınadək, bu meydanda fəal iştirak etdi. Bakıda - indiki Səttərxan adına zavodda müharibə üçünsilah-susat istehsal olunurdu. "Katyuşa" raketi, "Şpakin pulemyotu", "YAK-3" qırıcı təyyarəsi yığılırdı. Bütün qüvvələr faşizm üzərində qələbəyə yönəldilmişdi.

Azərbaycanda hazırda İkinci Dünya müharibəsi veteranları yaşayır. 9 may-faşizm üzərində qələbədən 78 il ötsə də, həmin illərin ağrısını-acısını yaşayan insanlar hələ də var, müharibənin canlı şahidləri. Həmin illərdə baş verən hadisələrin, müharibənin şahidi və iştirakçısı olan insanların qələbə istəyiilə Berlinə qədər getmələri, fədakarlıqları və ərənlikləri yaddaşlardan, tariximizdən heç vaxt silinməyəcək.

### "İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ XİDMƏTİ, FƏALİYYƏTİ, ROLU ÇOX BÖYÜK OLMUŞDUR"

Müharibədə od-alov püskürən cəbhələrdə ölümlə üz-üzə dayanan, qəhrəmanlıq göstərən insanlara və müharibə veteranlarına Azərbaycanda böyük diqqət və qayğı göstərilir. Veteranlara ikinci həyatı isə öz diqqət və qayğısı ilə Ulu Öndər Heydər Əliyev bəxş etmişdir. Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirmiş və onlara hərtərəfli qayğı ilə yanaşmışdır. Müstəqilliyin ilk illərində veteranlara ədalətsiz münasibət heç kimin yadından çıxmayıb, AXC-Müsavat iqtidarı dövründə, hətta 9 May Qələbə Gününü də ləğv etmək fikrində idilər. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdışından sonra bu ədalətsiz münasibət aradan götürüldü, ədalət bərpa olundu və veteranlara layiq olduqları hörmət göstərilməyə başlandı. "Tarix bu gün də bilməlidir ki, İkinci Dünya müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur", deyən Dahi Öndər Heydər Əliyev müharibə veteranlarını "Xalqımızın Qızıl Fondu" adlandırırdı.

Ölkəmizdə müharibə veteranlarına qayğının və onların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Ulu Öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır. "Biz ümumi Qələbəmiz uğrunda canlarından keçənlərin müqəddəs xatirəsini ehtiramla yad edirik", - deyən dövlət başçısı Azərbaycanda veteranların diqqət və qayğı ilə əhatə olunduğunu bildirib.

### HEÇ KİM UNUDULMUR

Azərbaycan Prezidenti İlham Əliyevin "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 26 aprel 2023-cü il tarixli Sərəncamı həmin kateqoriyadan olan vətəndaşlara yüksək diqqət və qayğının daha bir təzahürüdür. Sərəncama əsasən, İkinci Dünya müharibəsində Qələbənin 78-ci ildönümü ilə əlaqədar həmin müharibənin iştirakçısı olmuş 57 nəfərin hər birinə 1500 manat məbləğində birdəfəlik yardım ödəniləcək. İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslər, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçiləri, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslər, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarından ibarət 3672 nəfərin hər birinə isə 750 manat məbləğində birdəfəlik yardımın verilməsi dövlətin bu insanlara olan diqqətidir. Sərəncam, ümumilikdə İkinci Dünya müharibəsi iştirakçıları və sənəddə nəzərdə tutulan digər şəxslərdən ibarət 3729 şəxsə şamil olunub. Birdəfəlik maddi yardımların verilməsi üçün Sərəncamla Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 2,9 milyon manat vəsait ayrıldı.

Prezident İlham Əliyevin imzaladığı Sərəncam Azərbaycanın dövlət siyasətinin insan amilinə söykənməsi və humanist mahiyyət kəsb etməsinin növbəti təzahürüdür.

*Zümrüd BAYRAMOVA*

---



Elçin Bayramlı

# Dəyərlərimizi dəyərdən salanlar

Psixologiya elmi tibbi sahədir, amma bu gün ortalıq minlərlə elmsiz psixoloqla dolub. Təsəvvür edin ki, mən sosial şəbəkələrdə dost təkliflərinə baxıram, hər 10 nəfərdən 7-i psixoloqdur. Belə çıxır ki, istənilən şəxs müvafiq təhsili oldu-olmadı, özünü psixoloq kimi təqdim edib pul qazanmağa çalışır. Çünki indi psixoloq olmaq daha asan başa gəlir və xüsusi bir həkimlik təhsili lazım deyil. Ümumi internetdən əzbərlənmiş sözlər və sistemlərdir. Bunu belə edin, onu elə edin. Cəmiyyətimizə ən böyük zərbəni elə bu psixoloqlar vurdu.

Gənclərin və yeniyetmələrin tərbiyəsinin pozulmasının, ailə institutumuzun dağılmasının əsas səbəbkarı bu psixoloqlardır. Bunlar gecə-gündüz dayanmadan həm uşaqlarla, həm də böyüklərlə təbliğat apardılar, Qərb dəyərlərini gətirib bizim ölkəyə sırıdılar. Bəziləri məqsədli şəkildə bütün mənəvi dəyərlərimizi məhv eləməyə çalışırlar. Guya yeni psixoloji metodlar müasirlik və çərçivəsiz azadlıqdan ibarətdir. Beləliklə ailə institutumuzu dağıtdılar. Azərbaycanda artıq ənənəvi ailədən söhbət belə gedə bilməz. Son illərdə 12 toya getmişəmsə, bunun 8-i boşanma ilə bitib. Son 1 ilin statistikasına görə, boşanmaların səviyyəsi 50 faizə çatıb.

Bu cür psixoloqlara nəinki uşaq tapşırmaq, yanlarına getmək belə düzgün deyil. Maraqlıdır ki, bu psixoloqların çox böyük əksəriyyəti gənc qızlardır. Yaşlı qadın və kişi psixoloqlar çox azdır. Yəni, bəzi avara qızlar bir ara onlar özlərini model adıyla təqdim edirdilər, indi də psixoloq adı ilə ortalığa düşüblər, çünki bu işdə yaxşı pul var. Necə deyərlər, həm ziyarət, həm ticarət. Əlbəttə, hamısı belə deyil, içində normal, ağıllı, əxlaqlı, təhsilli psixoloqlar var. Amma bir çoxu belədir. Bunları cəmiyyət boykot etməlidir. Birincisi, bunlara bu imkanlar necə verilir? Hərə gedib yalançı təhsil müəssisəsindən sertifikat alır gəlir camaatın başında dələklik edir.

Biz görürük ki, psixoloqlar çoxalandan insanların psixologiyası necə dəyişib. Artıq bütün yaxşı şeylər pis sayılır, pis şeylər yaxşı. Hər şey tərsinə olub. Ona görə də, hamını belə psixoloqlardan uzaq durmağa çağırıram. Ümumiyyətlə, normal insan niyə psixoloqa gedməlidir. İnsan psixiatra gedə bilər. Psixoloq nə işlə məşğuldur, mənə hələ də çatmır. Problem onlarda deyil, onlar pul qazanırlar. Əsas problem insanlardadır. Belələrinin yanına getməsinlər. 100 manat pul verib gedir psixoloqun yanına, o da ümumi sözlərdən danışıb pulu alır qoyur cibinə. Deməli günah bizdədir.

Son vaxtlar cəmiyyətimizdə zorlamalar, fahişəlik, qadın alveri, boşanmalar, həyat yoldaşına xəyanət halları sürətlə artır. Mənəvi-əxlaqı deqradasiya pik həddinə gedir. Maddi dəyərlər mənəvi dəyərlərin önünə keçib. Qlobal mərkəzlərdən idarə olunan qruplar cəmiyyətimizdə əxlaqsızlığı normaya çevirmək, mənəvi dəyərləri tamam məhv etmək üçün var gücü ilə çalışır. Bu işlə təkcə saxta psixoloqlar deyil, çox sayda digər peşə sahibləri də məşğul olur- yazıçılar, jurnalistlər, sosioloqlar, müğənnilər, telemenecerlər və s.

Əvvəllər milli-mənəvi dəyərlərimiz həyatımızın əsas sütunu idi. El arasında "yazılmamış qanunlar" adlandırılan ictimai davranış kodeksləri var idi və buna əməl olunurdu. 21-ci əsrə keçid sanki başqa bir dünyanı gətirdi. Pul və vəzifə uğrunda amansızcasına mübarizə mənəvi dəyərləri tədricən arxa plana keçirdi. Təhsilə, elmə, mədəniyyətə marağı əlyençənin əvəz etməsi, ağsaqqal-qarasaqqal münasibətlərinin çərçivədən çıxması, özəl TV-lərdən şou, serial və kriminal verilişlərlə kütləvi əxlaqsızlaşdırma, psixotron terror, davamlı reklam təcavüzü ilə zövqlərin, xüsusiyyətlərin, davranışların, dəbin hansısa şübhəli xarici mərkəzlərdən formalaşdırılması siyahı təəssüf ki, xeyli uzundur.

Bəli, bu gün, bəzi qlobal mərkəzlər tərəfindən cəmiyyətimizə yad dəyərlər oturdulur, hər şey tədricən dəyişdirilir. Bunun nəticəsində, indi müsbət şeylər mənfi sayılır, mənfi şeylər müsbət. Mənfilər çoxaldıqca müsbətlər azalır. Azlıq çoxluğa tabe olur.

İndiki qloballaşma dövründə milli-mənəvi dəyərlərimizi daha çox qorumalıyıq, çünki indiyədək heç vaxt olmadığı qədər güclü təzyiq və terror altındadır. Elmə-təhsilə daha çox fikir verib irəli getməliyik. Sağlam düşüncəli, savadlı uşaqlar yetişdirib tərbiyə etməli, xalqımızı, ölkəmizi dünyanın inkişaf etmiş ölkəsinə çevirəcək insanları qorumalı, küçə müğənnilərini və yarıçılpaq modelləri dinləmək əvəzinə alimləri, ziyalıları dinləməliyik. Yalnız bu yolla bir millət kimi yaşaya və inkişaf edə bilərik.

# Üzgüçülüyə maraq niyə azdır: maddiyyat, yoxsa...?

**Su insanı sakitləşdirir və bədən ağrılarını aradan qaldırır. Suyun idmanla birləşməsi isə daha yaxşıdır. Üzgüçülük də suda edilə bilən idman növlərindən biridir. Bu idman növü aktiv əzələləri, kalori sərfiyyatı və digər faydaları ilə hər mövsümün əvəzolunmaz hissəsidir.**

## Üzgüçülüyün fiziki sağlamlığımız üçün faydaları nələrdir?

SİA mövzu ilə bağlı araşdırma edib.

### Kalori yandırır

Şübhəsiz ki, üzməyi ən cəlbedici edən faydalardan biri də onun kalori yandırmasıdır. Ona görə də bu idman növü kalori yan-



dıraraq formada olmaq istəyənlər üçün idealdır. 40-60 dəqiqə orta sürətlə üzmək təxminən 500 kalori yandırmağa kömək edir.

Digər tərəfdən, üzgüçülük zamanı çox səy göstərildiyi üçün maddələr mübadiləsi həddindən artıq sürətlənəcək. Bu da o deməkdir ki, üzgüçülükdən sonra kalori yanması davam edir.

### Bütün əzələ qruplarını işlədir

Üzgüçülük bütün əzələ qruplarını düzgün işlədir. Bu mənada digər idman növlərindən fərqlənir. Təbii ki, bir çox idman növlərində əsas və dəstəkləyici əzələ qrupları aktivləşir. Lakin üzgüçülükdə bütün əzələ qrupları bərabər və sağlam şəkildə aktivləşir. Bu, sümük və əzələ sisteminin sağlam olması deməkdir.

### Bədənin tarazlığını və koordinasiyasını artırır

Üzgüçülüyün digər bir faydası da bədən koordinasiyasını və tarazlığı artırmasıdır. Bütün üzgüçülük üslublarında ayaqlar, qollar, baş və gövdə ahənglə işləyir. Proporsio-



nal olaraq aktivləşdirilmiş əzələlər tarazlıq və bədən koordinasiyası deməkdir.

### Duruşunuz yaxşılaşır

Bütün əzələ qruplarının mütənasib işləməsi yuxarıda qeyd etdiyimizdən daha çox üstünlüklərə malikdir. Üzgüçülük bədəni həddindən artıq məcbur etmir. Başqa sözlə, əzələlər və sümüklər öz qabiliyyətlərinə uyğun olaraq güc istehsal edirlər. Bu, onurğanın sağlamlığını qorumaq deməkdir. Bu mənada bel ağrılarından əziyyət çəkənlər, stolüstü işçilər və duruş problemi olanlar üçün yaxşı seçimdir.



### Psixi sağlamlığa müsbət təsir edir

Üzgüçülük hər şeydən əvvəl idmandır. Bir idman növü ilə bədəni hərəkət etdirmək də birdən çox fayda gətirir. Üzgüçülük zamanı serotonin və dopamin kimi psixi sağlamlığa faydalı hormonlar ifraz olunmağa başlayır. Digər tərəfdən, suyun təravəti və yumşaqlığı sizin sakit hiss etməyə kömək edir.

### İmmunitet sistemini gücləndirir

Üzgüçülük zamanı, digər idman növlərində olduğu kimi, gərginlik səbəbiylə əzələlərinizdə mikro zədələnmələr meydana gəlir. Bu mikro-zərərlər bədən tərəfindən bərpa edilərkən, immunitet sistemi hüceyrələri aktivləşir. Digər tərəfdən, üzgüçülüklə hüceyrələrə qan və oksigenin bərabər axını orqanizmin toksinlərdən xilas olmasına kömək edir.

Eyni zamanda, üzgüçülük zamanı limfa sistemi tənzimlənir, ağ qan hüceyrələri qorunur və bədəndə balanslı bir paylama meydana gəlir.

### Elastikliyi artırır

Əzələ inkişafından şikayət edirsinizsə üzgüçülük sizin üçün əla seçim ola bilər. Çünki suda oynaqlar və sümüklər möhtəşəm şəkildə rahatlaşır. Bu o deməkdir ki, əzələlərin elastikliyi artır.

### Xolesterolu balanslaşdırır

Üzgüçülük zəhmətli bir məşq olduğundan, yağ ehtiyatlarının istifadəsini təşviq edir. Bu şəkildə daha çox kalori yandırılır. Beləliklə, arzuolunmaz pis xolesterin balansda saxlanıla bilər.

### Daha çox oksigen beyinə gedir

Beyin performansı üzgüçülüklə artır. Bunun səbəbi qan axınının artması və oksigenin beyinə daha sağlam bir şəkildə çatmasıdır. Bu, yaxşı yaddaş, idrak funksiyası və ayıqlıq deməkdir.

Təbii ki, üzgüçülüyün faydaları bununla bitmir. Üzgüçülük bütün yaş qrupları üçün uyğun idman növüdür. Bundan əlavə, isti yay günlərində təravətləndirmək üçün yaxşı seçimdir. Üzgüçülük hər kəsin bacara biləcəyi bir idman olduğu üçün sosiallaşmanı da artırır.

### Üzgüçülüklə hansı zaman aralığında məşğul olmalıyıq?

Üzgüçülüklə məşğul olmaq üçün həftədə iki və ya üç gün bir saat vaxt ayırmaq kifayətdir.

Əgər üzgüçülüklə ciddi maraqlanmağa qərar vermisinizsə, bir sıra elementləri nəzərdən qaçırmamalısınız.

- İlk növbədə həkim nəzarətindən keçdikdən sonra üzgüçülük idmanına başlanılmalıdır.
- Həqiqi və effektiv məqsədlər qoyun.
- Müvəffəqiyyət əldə etmək üçün lazımi məşq proqramları tətbiq edilməlidir. Ayaq və qol əzələlərini gücləndirən məşqlər üzgüçülükdə daha çox uğur qazanmağa imkan verir. Bundan əlavə, düzgün nəfəs alma texnikasını tətbiq etməklə üzgüçülük performansınızı effektiv şəkildə artıra bilərsiniz.
- Həftəlik təlim proqramı hazırlanmalıdır. Fiziki sağlamlığınıza və tutumunuza uyğun olaraq həftədə 2-3 gün 30 ilə 60 dəqiqə arasında tətbiq oluna bilən məşqlər tətbiq edilməlidir.
- Tətbiq ediləcək məşqlər və təlim proqramı mütəxəssis təlimçi tərəfindən müəyyən edilməlidir.
- İstifadə olunacaq aksesuarlar (eynək, kapot və s.) rahat olmalı və çimərlik geyimi bədən tipinizə ən uyğun model və ölçüdə olmalıdır. Əks halda yaşayacağınız narahatlıq uğurunuza mənfi təsir göstərə bilər.

### Üzgüçülük zamanı nələrə diqqət edilməlidir?

Üzməyi bilməklə onu düzgün tətbiq etmək arasında fərq var. Mütəxəssislər bildirirlər ki, üzgüçülük kimi idman növünə diqqət yetirilmədikdə təhlükəli ola bilər. Mütəxəssislərin tövsiyələrinə əsasən,

- Yeməkdən dərhal sonra suya girməyin. Bu vəziyyətdə mədə sancıları ola bilər. Bundan əlavə, yediyiniz qida hələ həzm olunmadığı üçün nəfəs almağınızı çətinləşdirə bilər.
- Günorta saatlarında günəş birbaşa başımızın üstündə olduğu zaman suda çox qalmamalıyıq. Əks halda suda huşunu itirmə riski ilə üzləşə bilərsiniz.
- Spirtli içki qəbul edərkən əsla üzməyin. Temperatur faktoru spirt içərkən üzgüçülük zamanı sərf olunan səylə birləşdirildikdə beyin qanaması riski artır.

### Kramplar baş verdikdə nə etməli?

Üzgüçülük əsnasında kramp dediyimiz əzələ daralmaları yaşanarkən diqqət etməmiz lazım olan ilk şey təşvişə düşməmək və sakit qalmaqdır. Sakitləşdikdən sonra suyun üzərində arxa üstə uzanmaq və gərginliklə ayaqlarınızı irəli uzatmaq lazımdır. Mümkünsə, ayaqlarınızı irəli və arxaya uzatmağa çalışın.

1 saat üzgüçülük üçün sərf olunan kalorilər:

Qadın: 400-600

Kişi: 600-800

Üzgüçülüyün faydaları haqqında danışdıq. Bəs, bu qədər faydası olmasına rəğmən niyə həvəskar üzgüçülüklə az insan məşğul olur? Onlara nə əngəldir?

Gəlin, ilk öncə üzgüçülük kurslarının qiymətlərinə nəzər yetirək.

"Edem" İdman Kompleksi: "Böyüklər üçün həftədə 2 dəfə -75, həftədə 8 dəfə - 85 AZN.

13 yaşadəkək uşaqlar üçün həftədə 2 dəfə -55, 3 dəfə -65 AZN.

Məşqçi ilə dərs götürdükdə isə hər dərs əlavə 3 AZN-dır.

"Atrium" İdman Kompleksi: "Kişi: Uşaqlar üçün həftədə 4 dəfə 90 AZN, 15 gün-45 AZN, 12 giriş- 75 AZN, 8 giriş- 60 AZN, 1 giriş - 10 AZN. Böyüklər üçün həftədə 4 dəfə 110 AZN, 15 gün- 55 AZN, 12 giriş- 90 AZN, 8 giriş -80 AZN, 4 giriş- 40 AZN, 1 giriş- 12 AZN.

Qadın: Uşaqlar üçün 1 ay həftədə 3 dəfə -80 AZN, 15 gün -40 AZN, 8 giriş- 60 AZN, 1 giriş-10 AZN. Böyüklər üçün həftədə 3 dəfə 110 AZN, 15 gün 55 AZN, 8 giriş- 80 AZN, 1 giriş- 12 AZN.

Fərdi qiymətlər: Uşaqlar- 8 giriş -150 AZN, 12 giriş -200 AZN, 16 giriş- 300 AZN.

Kişilər: 160, 200, 300 AZN".

Qeyd edək ki, bunlar normal qiymətə olan üzgüçülük mərkəzləridir. Bunlardan qat-qat bahalı mərkəzlər də var.

**Gənclər və İdman Nazirliyi İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Qabil Mehdiyev:** "Ölkəmizdə üzgüçülük üçün ən böyük idman qurğusu Bakı Su İdmanı Sarayıdır. Dünyada ən böyük və müasir idman mərkəzlərindən biri olan bu kompleksdə su idman növlərini peşəkar səviyyədə inkişaf etdirmək üçün hər bir şərait var. Eyni zamanda, olimpiya komplekslərinin hamısında üzgüçülük hovuzları var. Bu hovuzların hər biri son vaxtlar işlək vəziyyətə gətirilib və istifadə olunur.



Yalnız, üzgüçülük hovuzlarından istifadə ödənişlidir. Çünki komplekslər təsərrüfat hesablıdırlar və üzgüçülük hovuzlarının saxlanması böyük xərc tələb edir. Lakin, bir çox olimpiya komplekslərində ödənişsiz üzgüçülük bölmələri fəaliyyət göstərir. Həmin bölmələrə karyerasını peşəkar idmançı kimi davam etdirmək istəyən şəxslər, eləcə də yarışlarda kompleksi, həmçinin ölkəmizi təmsil edəcək idmançılar ödənişsiz məşğul olurlar. Vaxtaşırı üzgüçülük bölmələri olan komplekslərdə seleksiya işləri aparılır və bacarıqlı üzgüçülər həmin bölmələrə cəlb edilirlər".

***Ayşən Vəli***

ARAŞDIRMA

# Uğurlu dövlət siyasəti müxalifətə vurulan tərs şillədir

Yenilməz Sərkərdə, ölkə Prezidenti İlham Əliyevin "Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında" Sərəncamı ictimaiyyət arasında böyük rəğbət və sevinclə qarşılanıb









Dağıdıcı xislətli müxalif ünsürlər düşdükləri böhranlı durumdan çıxa bilmədiklərini dərk etdiklərindən, çıxış yolunu milli və dövlətçilik maraqlarına zərbə vurmaqda görürlər.Yəni əsas hədəf ondan ibarətdir ki, müxtəlif məzhəkələr hesabına ən azı mətbuatın diqqət mərkəzinə çevrilsinlər. Ancaq görünən ondan ibarətdir ki, müxtəlif funksionerlərinin iflası qaçılmazdır. Azərbaycanı istəməyən bəzi məkirli təşkilatların ayırdığı qrant Ə.Kərimli, A.Hacılı və digərləri üçün milli maraqlardan daha önəmli hesab olunur. Xaricdəki "söyüş qrupu"nu, eləcə də, adlarını "hüquq müdafiəçi"ləri qoyan özləri kimi ünsürlərin himayədarları rolunda çıxış etməklə, bir daha xalqdan ayrı düşən qüvvələr olduqlarını nümayiş etdirdilər. Baxmayaraq ki, AXCP ilə Müsavat heç zaman bir araya gələ bilmir. Bir-birini sıradan çıxarmaq, sanki onların əsas fəaliyyət istiqamətləri olub. Ancaq bu məsələdə bir yerdədirlər. Çünki xarici qrant verən ağaları belə istəyir. ADP sədri Sərdar Calaloğlu da mətbuata verdiyi açıqlamasında Ə.Kərimli və A.Hacılını tənqid edib, onları ucuz şoular hesabına siyasi dividend qazanmağa cəhddə ittiham edib. ADP sədri S.Calaloğlu Ə.Kərimlinin xaricdən maliyyə dəstəyi almaq üçün hər cür çirkin addım ata biləcəyini də istisna etmir: "Digər tərəfdən, beynəlxalq təşkilatlardan özlərinin təşkilatlanması adı ilə maliyyə dəstəyi almaq üçün dəridən-qabıqdan çıxırlar. Bununla da, müxalifət adını monopoliyalaşdırırlar".

S.Cəlaloğlu onu da bildirib ki, Ə.Kərimlinin özünü "radikal" adlandırmasının arxasında nə dövlətə, nə millətə, nə xalqa xeyir vermək məqsədi güdülür. Çünki Ə.Kərimli istər ölkədə, istərsə də ölkədən kənarda yaşanan geopolitik durumları, ölkədə baş verən müsbət prosesləri nəzərə almır və bir qayda olaraq, süni gərginlik yaratmaqla məşğuldur. Burada da yalnız bir niyyət var: mümkün qədər dünyanın demokratiyaya verdiyi dəstəyi özünə və partiyasına aid etmək: "Ancaq çox təəssüf ki, bu adamın özü demokratiya üçün, demokratiyanın inkişafı üçün heç bir iş görməyib. Bundan sonra da görəcəyini düşünmək sadəlövhlük olardı. Belə ki, onun özünün demokratiya haqqında anlayışı yoxdur. Bax, faciə də budur. Digər tərəfdən, ölkəmizdə milli maraqların təminatı ilə bağlı hər hansı məsələ müzakirə olunanda, biz bunları və Əli Kərimlini ortada görmürük". ADP sədri AXCP sədri Ə.Kərimlinin "Milli Şura"da oturaraq, milli-dövlətçilik maraqlarını satmaqla məşğul olduğunu da bildirib: "Ə.Kərimli bu gün də Rusiya layihəsinin əsas icraçılarından biridir. İ.Qəmbər vaxtında bunu anlayaraq, "Milli Şura"nı tərk etdi. Ə.Kərimli düşünür ki, Rusiya yenidən Azərbaycanı öz təsiri altına salmaq üçün hərəkətə keçər. Ona görə də o və ətrafı bir alət kimi ortalığa düşəcəklər".

### AXCP üzvü: "Dövlətçilik mənafeyinə zidd fəaliyyət yolu tutmaq satqınlığa, xəyanətə bərabər fəaliyyətdir"

AXCP sədri Ə.Kərimlinin müxalifəti gözdən salan fəaliyyəti artıq Müsavatla yanaşı, KAXCP, ADP, "REAL" və digər təşkilatlar tərəfindən kəskin şəkildə pislənilir. Bu səbəbdən də, müxalifətin bəzi partiya yetkililərilə AXCP arasında ciddi konfliktlər yaranıb. Daha doğrusu, onsuz da sərin olan münasibətlər Ə.Kərimlinin düşük hərəkətlərindən sonra daha da gərginləşib. Xüsusilə də, bu üzdəniraq məxluq hər fürsətdə dövlətçilik maraqlarına qarşı cəfəng fikirlər yayması, açıqlamalar verməsi sağlam siyasətin aparılmasının tərəfdarı olan sıravi üzvləri ciddi narahat edir. AXCP üzvü Cavid Axundov özünün facebook-dakı səhifəsində qeyd edib ki, dövlətçilik mənafeyinə zidd fəaliyyət yolu tutmaq satqınlığa, xəyanətə bərabər fəaliyyətdir: "Etiraf olunmalıdır ki, Azərbaycanda demokratik dövlət quruculuğu istiqamətində geniş islahatlar həyata keçirilir. İnsanlar fundamental azadlıqlarla təmin olunur. Söz və mətbuat azadlığı istiqamətində geniş işlər həyata keçirilir. Azərbaycanda 55 siyasi partiyanın, 3 mindən çox qeyri-hökumət təşkilatının, 10 minə yaxın saytın, çap mediasının qeydiyyata alınması və normal şəkildə fəaliyyət göstərməsi demokratik prinsiplərin uğurlu nəticəsidir".

AXCP üzvü onu da qeyd edib ki, bu gün sosial şəbəkələrdə 4 milyona yaxın insan müxtəlif formada öz fikir və mülahizələrini, videolarını azad şəkildə yayırlar: "Heç bir sosial şəbəkə istifadəçisinə qarşı dediyi ifadələrə görə irad və tənqid qeyd olunmur. Kimsə, o cümlədən təmsil olunduğum partiyanın sədri Ə.Kərimli yanlış və qeyri-etik fikirlər səsləndirirsə, bu, onun səhv siyasət apardığını göstərir. Cəbhəçilərdən xahiş edirəm ki, Ə.Kərimlinin məsuliyyətsiz fikirlərinə etiraz etsinlər".

Faktlar təsdiq edir ki, müxalifətin səhv siyasət yürütməsi ilə partiyadaşlarının irad və tənqidləri ilə üzləşən partiya sədri yalnız Ə.Kərimli deyil, eyni zamanda, Müsavat başqanı A.Hacılı, "Milli Şura"nın rəhbəri Cəmil Həsənli və digərləri də ittiham hədəfinə tuş gəlməkdədirlər. Bütün bunlar onu deməyə əsas verir ki, müxalifət partiya sədrləri ilə sıravi üzvlər arasında dərin uçurum mövcuddur. Sıravi müxalifət təmsilçilərinin dövlətçilik mövqeyini müdafiə etmələri və "lider"ciklərin söylədikləri əsassız fikirlərə görə peşman etmələri onu göstərir ki, sıravilər dövlətin siyasi kursunu müdafiə edirlər.

### Humanizmə əsaslanan əfv Sərəncamı cəmiyyətdə milli birliyin daha da möhkəmlənməsinə xidmət edir

Torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunması müxalifətin sıravi kəsimini məmnun edən addımlardandır. Mayın 8-də Yenilməz Sərkərdə, ölkə Prezidenti İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında" Sərəncamı ictimaiyyət arasında böyük rəğbət və sevinclə qarşılanıb. Sərəncama əsasən, 801 məhkum əfv olunub, onlardan 463 şəxs azadlıqdan məhrumetmə cəzasından, 220 şəxs azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfər azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan (azadlığın məhdudlaşdırılması, islah işləri, cərimə cəzaları və cəzaya şərti məhkum edilmiş şəxslər) azad edilib. Sərəncam şamil edildiyi şəxslərin dairəsinə görə müstəqil Azərbaycan Respublikasının tarixində qəbul edilmiş ən böyük əfv aktıdır.

Ombudsman Səbinə Əliyeva bildirib ki, indiyə qədər 69 əfv sərəncamı imzalanıb, 12 Amnistiya aktı qəbul edilib: "Bu gün imzalanan sənəd əhatəsinə görə ən geniş əfv sərəncamıdır. Bu gün çox sevincli gündür. Əfv sərəncamı birbaşa Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun siyasətinin layiqli davamçısı İlham Əliyev də Ulu öndərin 100 illiyi ilə bağlı əfv sərəncamı imzaladı. Ombudsman olaraq sərəncama görə təşəkkürümü bildirirəm. Ombudsmanın vəsatəti ilə indiyə qədər 864 nəfər əfvə düşüb: "Bu sərəncamda isə 59 nəfər məhkum Ombusmanın vəsatəti ilə azadlığa buraxılır".

Cəmiyyətdə böyük rəğbətlə qarşılanan əfv sərəncamı siyasi və ictimai mövqeyindən asılı olmayaraq yüzlərlə şəxsə şamil olunub. Bu isə onlarla ailəyə sevincin bəxş edilməsi, üzlərin gülməsi, qəlblərin xoşbəxt olaraq döyünməsi, Prezidentimizə təşəkkürlərin, Ulu Öndərimiz Heydər Əliyevə qəni-qəni rəhmətin oxunması deməkdir. Lakin yenə də müxalifətin dağıdıcı qanadı sərsəm mövqeyini gizlətmir. Onların dayaz və düşük təfəkkürünə görə, türmələrdəki bütün cinayətkarlar azad edilməlidirlər. Bəlkə dağıdıcı müxalifət azadlığa çıxan insanların əfvə düşməsini istəmirdilər? İstəmirdilərsə, deməli, məkrli planları olub. Hansı ki, bu planların tərkibində xaricdən qrantlar almaq arzusu da dayanır. Lakin dağıdıcı müxalifətin nə deməsindən asılı olmayaraq Azərbaycan xalqı dünyada yaşayan azərbaycanlılar əfv Sərəncamını sevinclə qarşılayıb, Prezidentimizə yüz dəfə, min dəfə təşəkkürlər deyirlər. Biz də əfv Sərəncamı ilə ailələrə sevinc bəxş edən Ali Baş Komandanımız, Prezidentimiz İlham Əliyevə minnətdarlıq edir, təşəkkürümüzü bildirir, Ümummilli Liderimiz Heydər Əliyevə Allahdan rəhmət, yerinin cənnətlik, ruhunun şad olmasını diləyirik.

**İ.ƏLİYEV**



Lalə Mehralı

## Az idi arıq-uruq, biri də gəldi dabanı yarıq!

Öldürülməklə qətl edilmək arasındakı o incə səddi bilirsinizmi?

Amansızlıqla, vicdansızcasına, vəhşicəsinə, insanfsızcasına, qana susayarcasına öldürülən qadınlara "öldürüldü" demək gəlmir içimdən. Onlar qətl edilir!

Az idi burada arvadını, anasını, bacısını, qızını öldürən, biri də qardaş ölkədən gəlib öldürür.

Ömrünü təhsilə, peşəsinə, karyerasına, inkişafına vermiş işıqlı bir həkim köçdü dünyadan.

Köçmədi, zorla köçürüldü. Vəhşicəsinə, qəddarcasına...

Bütün ömrünü öyrənməyə, təhsilə, şəfaya, sağlamlığa həsr et, ömrün zorla yarıda qırılsın.

Niyə qanına qəltan edilir qadınlar?

Nə verib qadınlara kişilər, geri ala bilmir?

Niyə öldürülür qadınlar?

Görün nə qədər "səbəbi" var: Ailədaxili mübahisə, xəyanət, qısqanclıq, namus, işsizlik, psixoloji pozğunluqlar, adət-ənənə, boşanma və ya boşanma tələbi...

Həə, gəldik əsas məsələyə...

İki gün əvvəl qətl edilən həkim də boşanmaq istədiyi üçün öldürüldü.

Onu öldürəcəyini bilmədiyi ərinin xəyanətini yaxaladığına görə.

Öz eqosuna yedirə bilməyən, "kişiliyinə sığışdırmayan" ər xəyanətini problem hesab etmir, boşanmanı problem edir. Tipik mental düşüncə: "Kişiyə hər şey olar"...

Qadınlara qarşı zorakılıq həyatımızın gerçəyidir və bu, bütün cəmiyyətə təsir göstərir.

Təəssüf ki, milli mədəniyyətimiz qadınlara qarşı zorakılığa dözməyi aşılayır:

"Ərindir, döz!"

Qadınlar zorakılığa məruz qalmağa layiq olduqlarını, kişilər isə bunu öz hüquqları kimi qəbul edirlər. Bu bizim dəyərimiz deyil, ola da bilməz. Mədəni dəyərlərimizin bu istiqamətdə degenerasiyaya uğramasının qarşısını almaq şərtdir.

Belə davam edə bilməz...

Ailədə qadınlara qarşı zorakılıq "ailənin daxili işinə qarışmaq" kimi xarakterizə edilir, müdaxilə edilmir və nəticədə bu etinasızlıq ölməyə, öldürməyə qədər gedib çıxır.

Sonra "kaş ki..." demək nə fayda verir ki?

Siz heç bu günə qədər kişilərin haqlarının pozulması, öldürülməleri, zorakılığa məruz qalmaları səbəbindən aksiya keçirdiklərini gördünüzmü?

Mən görmədim.

Çünki bütün bunlara qadınlar məruz qalır, döyülür, söyülür, qətl edilir.

Haqlarını tələb edirlər, ala bilsələr...

İnsanlıq qaça-qaça, var gücü ilə sıldırım qayalığa doğru gedir.

O uçurumdan aşağı yuvarlanması yaxındır...

Necə deyir ozan?

"Qadınlar insandır, kişilər insan övladı".

İnsanlığı qətl etməyin ey kişilər!

Oturduğunuz budağı kəsməyin!

# “Azərbaycan bu prosesdə güclü mövqeyə malikdir”

## Andrey Fyodorov: İlham Əliyev güclü liderdir, bacarıqlı liderdir və ən əsası xarici siyasət sahəsində çox fəaldır



**Rusiya xarici işlər nazirinin keçmiş müavini Andrey Fyodorov (1990-1991) ”Moskva-Baku” portalına müsahibəsində Amerika platformasında Ermənistan-Azərbaycan nizamlanması üzrə Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında cari bir həftəlik danışıqlar prosesi haqqında və bu prosesin Rusiya və bütövlükdə Cənubi Qafqazdakı vəziyyət üçün nə demək olduğu haqda fikirlərini bildirib.**

***- Andrey Vladimiroviç, Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında danışıqlar 4 gün ərzində Amerikada, ABŞ dövlət katibi Entoni Blinkenin də vasitəçiliyi ilə aparılıb. Dövlət Departamenti bəzi razılaşmaları açıqlayıb. Xüsusilə, Azərbaycan prezidentinin Rusiya ərazisində gözlənilən görüşü təsdiqləməsi prizmasından bu vəziyyətlə bağlı nə deyə bilərsiniz? Moskva görüşü niyə əvvəlcədən keçirmədi?***

- Yəqin ona görə ki, Ermənistan-Azərbaycan prosesində moderatorların yerini tutmağa fəal şəkildə can atan amerikalıların, fransızların və digər Qərb ”tərəfdaşlarının” məntiqini tam başa düşməliyik. Əgər biz əvvəlcədən Rusiya məkanında görüş keçirsəydik və nəyisə razılaşdırsaydıq, ondan sonra ABŞ və ya Aİ məkanında razılaşmalarımızı düzəltməyə başlaması riski yüksək olardı. İndi Moskva üçün Amerika danışıqlarının nəticələrini təhlil etmək vacibdir və prosesi korrektə etmək lazımdır. Moskva üçün onun düzəldilməsi, düzəltmək imkanının olması vacibdir. Bu vəziyyətdə ən vacib şey budur.

***- Bununla belə, Moskva ABŞ-ın praktiki danışıqlar prosesində, deyək ki, irəli getməsinə imkan verməklə öz imicini əldən verirmi?***

- Nə qədər ki, Moskvanın düzəliş etmək şansı var, demək əldən buraxmayıb. Bizi dinləyirlər.

***- Yenə də Amerika danışıqları ciddi yanaşma kimi görünür. Bu danışıqlardan həqiqətən nə gözləyirsiniz?***

- Amerikalılar sadə bir şey istəyir- Rusiyanın tədricən regiondan çıxarılması. Həm amerikalılar, həm də fransızlar bu barədə dəfələrlə açıq danışdılar. Onlar bildirdilər ki, Rusiya Federasiyasını əsas danışıqlar aparan, regionda təhlükəsizliyin təminatçısı kimi əvəz etmək istəyirlər. Onlar Rusiyanı Azərbaycan-Ermənistan münasibətləri üzrə müşahidəçi, ümumiyyətlə, Cənubi Qafqazdakı vəziyyət üzrə müşahidəçi kateqoriyasına keçirmək istəyirlər. Bu, getdikcə daha aydın görünən tamamilə aydın bir tendensiyadır.

İndi Rusiyanın obyektiv problemli vəziyyəti var: Ukraynaya görə həddindən artıq yüklənmə.

Bir daha xatırladıram: Nensi Pelosi, keçən il İrəvana gələndə demişdi: KTMT-dən çıxın, sabah Ermənistan hökumətinin milyard dolları olacaq. Yəni, ABŞ maliyyə təsir mexanizmlərini də özündə ehtiva edir. Azərbaycan daha sabitdir, ayaq üstədir, Ermənistan isə maliyyə təzyiqinə məruz qala bilər. Bu reallıqdır.

***- Sizcə, ABŞ-da heç nəyə imza atmayacaqlar?***

- Söhbət imzalanmada yox, qapalı müqavilələrdədir. Bu, hər hansı rəsmi imzalanmış sənəddən daha vacibdir. Çünki Qərbin regionda bütün sonrakı strategiyası məhz qapalı razılaşmalar əsasında qurulacaq. Və bu qapalı razılaşmalar əsasında Rusiyanın vəziyyətə təsir etmək baxımından sahib olacağı imkanlar müəyyənləşəcək.

Çox şey şüurlu şəkildə ictimai məkana çıxarılmayacaq. Bu, hər iki müqavilə tərəfi üçün əlverişsizdir.

***- Amerika konkret olaraq kiminsə tərəfində oynayır, ya yox? Çünki xarici işlər nazirlərinin Amerika platformasında görüşündən əvvəl Dövlət Departamenti də Fransa kimi, Azərbaycan tərəfinin Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin quraşdırılmasının sülh prosesinə xələl gətirdiyini açıq şəkildə bəyan edib və blokun açılmasına çağırıb. Amma Rusiya Xarici İşlər Nazirliyi balanslı açıqlama verib.***

- Amerika ”uzun müddətdir” ki belə oynayır- bu, situasiyada başa düşülməli olan əsas amildir. Amerika üçün bizdən fərqli olaraq sabahkı nəticə əhəmiyyətsizdir. Onun üçün gələcək üçün vacibdir- sabah, o biri gün, o biri gün və s. ABŞ, kobud desək, yanmır. Və bu bizim vəziyyətimizdən fərqlidir. Rusiyaya hazırda Zaqafqaziyada sabitlik lazımdır. Bizim regiondan çıxmağımıza və Ermənistanın KTMT-dən çıxmasına gətirib çıxarmayacaq belə sabitlik.

Laçın dəhlizi ətrafında yaranmış vəziyyətlə bağlı Ermənistan ”söz oyunu”ndan istifadə edir. İrəvan, gördüyümüz kimi, Qərb tərəfdaşları ilə təmaslarda həmişə Azərbaycanın sülhü blokladığını vurğulayır.

***- Belə çıxır ki, Ermənistanı dinləmək Qərb üçün "rahatdır"?***

- Qismən Fransada- bəli. Amerikalılar, dediyim kimi, uzun müddət oynamağa hazırdırlar. Onlar Ermənistanla bərabər oynayacaqlar, eyni zamanda Azərbaycanla sərt qarşıdurmaya girməməyə çalışacaqlar.

Bu gün amerikalılar üçün tərəf tutmaq sərfəli deyil. Onların ardıcıl olaraq irəlilədikləri strateji hədəfi var - davamlı olaraq, Rusiyanı bölgədən yumşaq bir şəkildə sıxışdırmaq. ABŞ yaxşı başa düşür ki, Rusiya Federasiyasını 1-2 günə regiondan çıxarmaq mümkün deyil. Və beləliklə, yumşaq ekstruziya taktikasından istifadə edirlər- addımaddım.

Ermənistan-Azərbaycan münaqişəsini nəhayət ki, bağlamağa Azərbaycanın ehtiyacı var. Bakının fikrincə, Azərbaycanın maraqlarına toxunmayacaq məqamlar qoyulmalıdır. Münaqişənin elə bir sonu olmalıdır ki, yeni münaqişə mərhələsinə gətirib çıxarmasın.

***- Rusiya Xarici İşlər Nazirliyi mütəmadi olaraq Qərbin Ermənistan-Azərbaycan nizamlanmasında "vicdansız makler" olduğunu dedikdə, Kreml Qərbin danışıqlara "əsasını soxmasına" eyham vuranda, bu yolla hansı mesaj verilir?***

- Bunlar Qərbə siqnallardır: uşaqlar, siz bura dırmaşmırsınız. Ancaq Qərb, aydın olduğu kimi, prinsipial olaraq belə edir. Digər məsələ odur ki, biz Ermənistan-Azərbaycan həllini ən yüksək səviyyədə qərara bağlamışıq. Çünki bizdə kimin nə deməsindən asılı olmayaraq- məsələn, xarici işlər nazirlərinin-, həlledici söz yenə birinci şəxslərdədir.

Azərbaycan və Ermənistanı götürsək, Paşinyan birinci şəxs kimi qeyri-stabildir və müəyyən təzyiqlərə məruz qalır, yəni Paşinyana qarşı təzyiqlər var ki, bunu istisna etmək olmaz. Putinə də, Əliyevə də təzyiq etmək əbəsdir. Amma Ermənistanın baş nazirinə təzyiq edə bilərsən və bundan da istifadə olunur.

***- Prezident Əliyev bildirib ki, İrəvanın sülh sazişi ilə bağlı yenilənmiş təkliflərinin növbəti variantında Ermənistan yenidən Azərbaycana ərazi iddiaları irəli sürür...***

- Qarabağla bağlı vəziyyət ağırdır. Paşinyan üçün Qarabağı ”təslim etmək” ölümcül bir şey deyil... amma çox çətindir... Qarabağ problemi Ermənistanın baş nazirinə daxili siyasi həyatda problemlər yaradır. Baxmayaraq ki, Ermənistanda çoxları Qarabağın itirilməsi ilə artıq barışıb.

Bu gün Paşinyanın hərəkət tərzi bu kateqoriyadandır: kiminsə boşqabında nəsə qalıbsa, onunla alver edə bilər. Onu verərik və həll edərik. Ola bilsin ki, mən kinli davranıram, amma hazırkı danışıqlar prosesi ilə bağlı o qədər də optimist deyiləm.

***- Sülhməramlıların hansısa yolla çıxarıla bilməsi ehtimalı varmı?***

- Paris ötən həftə artıq İrəvandakı səfirliyində hərbi missiya yaratdığını bəyan edib. Bunun fonunda rəsmi İrəvan avropalı tərəfdaşlarına Azərbaycanla sərhəddə monitorinq missiyasını genişləndirməyi təklif etdiyini bəyan edib.

Fransa, fransalı diplomatlar, həmişə açıq şəkildə deyil, amma deyirlər ki, Qarabağa mavi dəbilqələr yerləşdirək. Bu yaxınlarda bir Fransa nümayəndəsi mənə dedi: ”Mavi dəbilqələr Azərbaycanın qəbul etməyəcəyi qüvvədir”.

Bu variant- Rusiya sülhməramlılarının avropalılarla əvəzlənməsi təbii ki, Ermənistanın maraqlarına cavab verir.

Yeri gəlmişkən, Ərdoğanın hakimiyyətdə qalıb-qalmayacağı da regionun gələcəyi üçün çox önəmli faktordur. Əgər belədirsə, o, əvvəlki kimi Azərbaycanın regionda maraqlarını müdafiə etməyə davam edəcək. Əks halda, Qərbin təzyiqi altında vəziyyət daha da mürəkkəbləşəcək.

***- İndi Paşinyan Ermənistanın emosiyaya qapılmaması lazım olduğunu, sülhə ehtiyacı olduğunu deyən bəyanatları bərpa edib...***

- Bu, normal siyasi oyundur. Ermənistan isə bütün bu prosesdən bir tərəfdən yorulub, həm iqtisadi, həm də maliyyə cəhətdən yorulub. Amma Paşinyana siyasi manevr üçün yer açacaq bir həll lazımdır. Onun üçün təslim olmadığını göstərmək vacibdir.

Eyni zamanda, hesab edirəm ki, Azərbaycan hələ də yaranmış vəziyyətdə güclü mövqeyə malikdir. İlham Əliyev güclü liderdir, bacarıqlı liderdir və ən əsası xarici siyasət sahəsində çox fəaldır. Və bu, Azərbaycanın həm danışıqlar prosesində, həm də danışıqlar prosesindən kənarda öz mövqelərini səmərəli şəkildə müdafiə etməsi faktını xeyli dərəcədə müəyyənləşdirir. Amma bu gün rəsmi Bakı üçün ən vacib olanı bu gün baş verən və gələcək illərdə baş verəcək bütün qlobal dəyişikliklərlə Azərbaycan öz müqəddəratını təyin etmək kimi çətin vəzifə ilə üzləşməkdə davam edir. Çünki kim nə deyirsə desin, Rusiya və müxtəlif qütblərin qarşıdurmasının artması tendensiyası var.

Və Azərbaycanın indi dayandığı düz xətdə qalması çox vacibdir. Azərbaycan ciddi təzyiq obyekti olacaq, çünki dünyanın ”bizimki” və ”onlarınkı”na bölünməsi səviyyəsində yeni yenidən bölüşdürülməsi başlayır. Azərbaycanın bütün bunlardan sağ çıxması, bugünkü dövlət kimi qalması çox vacibdir.

***Tərcümə - Elçin Bayramlı***



# Müstəqillik yolunda qadın izi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti çərçivəsində hazırlanıb*

**Müharibə şəraitində olan bir dövlətin hər şeydən öncə vətəndaşlarının sədaqətinə, sevgisinə və fədakarlığına ehtiyacı var. Vətən anadır, o övladlarını seçmir. Hərdən nankorluq edən övlad isə vətən üçün kəsilməyən barmaqdır. İstər qadın olsun, istər kişi, vətənimiz üçün hamısı övladdır. Doğulan hər övlad isə cinsindən asılı olmayaraq bir əsgərdir.**



## Aslanın erkəyi, dişisi olmaz

Tarixi boyunca qadın sərkərdəsi, qadın hökmdarı, qadın siyasətçisi, qadın alimi - hər istiqamətdə vətənə xidmət edən dişi aslanları olub ölkəmizin. Dövrümüzdə qadınların vətənin müdafiəsindəki rolu ilə bağlı da kifayət qədər danışılır. Orduda qadının önəmi həmişə müzakirə edilən bir mövzu olub. Alimlər hesab edir ki, kişi beyni qadın beyninə nisbətən daha çox inkişaf edib və buna görə də döyüşlərdə qadınların təhlükəni fərq etməsi və reaksiya verməsi kişilərə nisbətən daha ləng olur. Eyni zamanda, kişilərin fiziki cəhətdən daha güclü olması da səbəb göstərilir və lazım gələrsə əlbəyaxa döyüş anında qadınların gərəkli qüvvəni göstərə bilməməsi səbəb göstərilir. Lakin qadınların kişilərdən daha sərrast snayper olduqları barədə kifayət qədər çox fakt var.





Araşdırmalarımıza görə, zərif və gözəl cinsin nümayəndələrinin əsgərlik tarixi 4000 il öncəyə qədər gedib çatır. Qədimdən bəri qadınlar orduda bir çox vəzifələrdə qulluq ediblər. Şanlı tariximizə yazılan türk qadınlarının zəfər çaldığı nə qədər döyüş var. Azərbaycan tarixində cəngavər, hökmdar, döyüşçü qadınlar az olmayıb. Tibb elmi sahəsində böyük nailiyyətlər qazanmış Zərifə Əliyeva, ilk azərbaycanlı riyaziyyatçı alim Maya Hacıyeva, ali təhsil alan ilk Azərbaycanlı qadın Nigar Şıxlınskaya kimi qadınlar bizim tariximizdir.

Ərəblərin Azərbaycana təcavüzü zamanı Muğanda kişilərin döyüşlərdə həlak olmasından sonra sabahı günü son hücuma hazırlaşan ərəb ordusu qarşısında böyük bir ordu görmüşdü. Bu qədər kişinin qalmadığını düşünən ərəblər heyrətə gəlmişdi, yalnız döyüş başladıqdan sonra qarşı tərəfin tam olaraq qadınlardan ibarət ordu olduğunu fərq etmişdilər. Yaxın tariximizə nəzər salsaq, Qarabağ döyüşündə xeyli qadın döyüşçülərin olduğunu görərik.







## Hökmdar, diplomat, şəhid qadınlar

Tarix göstərir ki, qadın həm ön, həm də arxa cəbhələrdə vətənin ərazi bütövlüyü üçün vuruşub. Kişilərin müharibədə olduğu zamanlarda qadın evin həm atası, həm anası olub, həm ailəyə baxıb, həm ordudakı əsgərlər üçün ictimai işlərdə çalışıb. Bizim vətənin müstəqilliyi üçün canını verməyə tərəddüd etməyən cəngavər qadınlarımız da az olmayıb. Azərbaycanın şanlı tarixində Tomris, Nigar cəngavərliyi, Həcər şücaəti, Nüşabə fərasəti və Sara Xatun məharəti yaşayır. Qarabağ müharibəsi qəhrəmanları isə onların tarixdəki izlərini bir daha qabartdı, qəhrəman qadınlarımız Azərbaycanın hünər tarixinə yeni parlaq səhifələr yazdı.

Məlumat üçün qeyd edək ki, dünya ordularında qadınların böyük qismi əsasən, arxa cəbhə təminatı və qərargah işlərində çalışırlar. Yalnız İsrail, ABŞ, Rusiya, Çin, Şimali Koreya və Böyük Britaniya ordusunda qadınlar bilavasitə döyüş tapşırıqlarında iştirak edə bilirlər. Sovetlər dönəmində Böyük Vətən Müharibəsi zamanı qadın əsgərlərin sayı isə 800 mini keçirdi. Bu qadın əsgərlərin 70 faizi döyüş bölgəsində, səngərdə düşmənlə üzbəüz olub.

Ekspertlər isə hesab edir ki, istənilən qadın 2-3 aylıq hazırlıq kursu ilə hərbi xidmətə həm fiziki, həm də mənəvi cəhətdən hazır olar. Hazırda qadınlar ümumilikdə bir çox orduda xidmət etsələr də bir çox döyüşlər zamanı ön cəbhədə döyüşmələrinə izin verilmir. Ona görə də, əksər qadın hərbçilər orduda səhiyyə, xilasetmə, rabitə və bu kimi digər sahələrdə xidmət edir.

Amma təcrübə göstərir ki, silah haqqında ən cüzi anlayışı olmayan qadınlarımız Qarabağ müharibəsində nə qədər böyük şücaətlər göstərdi. Yəni, əsas olan əzm, vətən sevgisidir. Azərbaycanın Müdafiə Nazirliyində, Daxili Qoşunlarda, Sərhəd Qoşunlarında, Xüsusi Dövlət Mühafizə Xidmətində, Mülki Müdafiə Qoşunlarında və digər hərbi təşkilatlarda zərif cinsin nümayəndələrinə çox rast gəlmək olur.

Azərbaycan Silahlı Qüvvələrində qadınların kütləvi xidmətlərini bəzi amillər məhdudlaşdırır. Milli mentalitet anlayışımızda kişilər qadınlardan bir addım öndə ona görə durur ki, təhlükəni birinci qarşılasın və zərif cinsi qorusun. Amma müstəqilliyimizi qazandıqdan sonra qadının dövlət işlərindəki payı artıb, indi qadın həm parlamentdə, həm icraedici orqanlarda öz sözünü deyə bilir, artıq vətənin müdafiəsində belə qadının öz yeri, çəkisi var və bütun bunlar dövlətdə qadının söz haqqını artırır. 1994-cü illərdə 500-dən artıq qadın müxtəlif hərbi hissələrin tərkibində cəbhədə döyüşüb. O zaman ayrıca qadın batalyonu da yaradılmışdı. II Qarabağ Müharibəsində də orduya qatılmaq istəyən kifayət qədər çox qadın vardı, lakin cəbhəyə getmək istəyən könüllü kişilər o qədər çox oldu ki, qadınlara ehtiyac qalmadı. Qeyd etməliyəm ki, II Qarabağ müharibəsinin yeganə qadın şəhidi Arəstə Baxışova öz peşə fəaliyyətini yerinə yetirərkən - cəbhədə tibbi yardım edərkən şəhid oldu. I Qarabağ Müharibəsində xidməti vəzifəsini yerinə yetirərkən şəhid olan Salatın Əsgərova da Azərbaycan tarixində silinməz iz qoyub.

## Zəif deyil, zərif qadınlar

Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, isməti, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi, millətinə, torpağına hədsiz məhəbbəti ilə tanınıb. Ölkəmiz müstəqilliyini bərpa edəndən sonra qadın hüquqlarını müasir standartlara, beynəlxalq hüquq normalarına, milli qanunvericiliyə və müstəqil Azərbaycan dövlətinin inkişaf prioritetlərinə uyğun olaraq inkişaf etdi, ölkədə həyata keçirilən obyektiv siyasət qadının cəmiyyətdən uzaqlaşmasının qarşısını aldı, insan hüquqları sahəsində aparılmış ardıcıl islahatlar nəticəsində qadın hüquqlarının müdafiəsi bərabər imkanlar yaradılması istiqamətində mühüm addımlar atıldı.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın qadınlarımızın ictimai fəallığının artırılması, onların qərar qəbuletmədə, ailə, qadın və uşaqların, gənclərin hüquqlarının müdafiəsi və həyata keçirilməsində, həmçinin öz problemlərinin həllində iştirakının təmin edilməsində, davamlı inkişaf proseslərinə cəlb edilməsində həyata keçirdiyi böyük işlər danılmazdır. O qadınlarımızın hüquq və imkan bərabərliyinin genişləndirilməsi, gender balansının qorunması və daha da möhkəmləndirilməsi, eləcədə onların dövlətdə təmsili üçün kifayət qədər çox işlərə imza atıb.

Bu günün qadını sabahın anasıdır, sabahın anası isə gələcəyin qurucusudur. Cəmiyyət inkişaf etdikcə qadınların fəallığının artması təbiidir, onların demokratik quruculuq prosesində, ictimai həyatda, idarəetmədə daha fəal iştirakı, cəmiyyətin müxtəlif sahələrində təmsilçiliyi zəruridir. Qadınların bir ana kimi, evdə-ailədə qazandıqları nüfuzla yanaşı, onların ictimai-siyasi həyatda da fəallığının artırılması, vətəndaş mövqeyini təsdiq etməsi olduqca vacibdir. Azərbaycan dövləti bu haqqı onlara verir.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
9 may
2023-cü il

# Viza almaq üçün əsas şərtlər açıqlandı






**"Azərbaycan və ya qeyri-Avropa Birliyinin vətəndaşlarından Avropaya getmək üçün Şengen viza tələb olunur. Bunun standart şərtləri Avropa Birliyinin konvensiyası ilə hesablanır". Bu sözləri SİA-ya açıqlamasında turizm üzrə ekspert Ramin Zamanov deyib.**

Onun sözlərinə görə, viza almaq üçün vətəndaşlara düzgün məlumat verilməlidir: "Avropa ölkələrinin səfirlikləri tərəfindən verilən vizalarda qeyd olunan əsas şərt odur ki, vətəndaş oraya gedəndən sonra geri qayıdacaq. Vizanın verilməsi üçün vətəndaşın öz ölkəsinə geri qayıdacağını əmin edən sənədlər kifayət qədər yetərli olmalıdır. Əgər bir şəxsin öz ölkəsində yaxşı işi, evi, ailəsi və s. varsa artıq səfirlikdə viza verən konsulluq şöbəsi də onun dönüş edəcəyinə əmin olur. Təbii ki, vətəndaşı öz ölkəsinə bağlayan ciddi məqamlar olmadıqda və ya çox gənc olduqda onun viza almaq ehtimalı az olur. Xüsusilə qeyd etmək istəyirəm ki, Avropaya getmək üçün yalnız turistik viza alınmır. Təhsil, işçi, tibbi və s. kimi vizalar mövcuddur. Bunların hər birinin öz standartları var. Əslində, viza şərtləri heç vaxt bizim mövqeyimizə uyğun dəyişə bilməz. Bu şərtlər Avropa Birliyinin konkret standartlarına uyğun olaraq təyin olunub. Viza almaq üçün şərtlər bizə deyil, biz o şərtlərə uyğun olmalıyıq".

*Ləman Əlizadə*

# Təhsili olmayan bağça müəllimləri kütləvi ixtisar ediləcək?

MÜTƏXƏSSİS AÇIQLADI





"Ümumi bağça müəllimlərinin kütləvi ixtisar olunması ilə bağlı bir qərar yoxdur. Sadəcə olaraq, qeyri-ixtisas sahiblərinə (hansı ki, pedaqoji yönümlü deyil və yaxud da konkret olaraq təhsil haqqında qanunvericiliyin tələbi əsasında məktəbəqədər təlim-tərbiyə ixtisası üzrə ali və yaxud da orta-ixtisas təhsili almayan şəxslər) tədricən ümumi sertifikasiya prosesi keçirilməsi və müsabiqədən keçə bilməyənlərin artıq prosesdən kənarda qalması düşünülür. Yəni, bu hələ ki indi yox, bir müddət sonra atılacaq addımdır. Amma hal-hazırda bu istiqamətdə Elm və Təhsil Nazirliyi müvafiq olaraq iş aparır". Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə mütəxəssis Elçin Əfəndi deyib.

Elçin Əfəndi sözlərinə belə davam edib: "Bilirsiniz ki, 2011-2021-ci illər ərzində bu istiqamət yalnız yerli icra hakimiyyəti orqanlarının tabeliyində idi. 2021-ci ilin dekabr ayında dövlət başçısının müvafiq sərəncamı əsasında Elm və Təhsil Nazirliyinin tabeliyinə verildi və 2022-ci ilin yanvar ayından etibarən isə məhz Elm və Təhsil Nazirliyi bütün prosesi ələ aldı.

Hal-hazırda elektron qaydada ilk dəfə bağçalarla uşaqların qeydiyyatı aparıldı. Eyni zamanda qarşıdakı dövr ərzində müəllimlərin işə qəbulunun elektron qaydada müraciətlərin qeydə alınması aparılacaq. Həmçinin, imtahanların təşkil olunub keçirilməsi nəzərdə tutulur.

Tədricən bu prosesdə məhz qeyri-pedaqoji ixtisasları olan şəxslərin və ümumiyyətlə təhsil haqqında qanunvericiliyin, eyni zamanda məktəbəqədər təhsil haqqında həm qanunvericiliyin, həm də nizamnamənin tələblərinin qorunub saxlanılması məqsədilə məhz ixtisas sahiblərinin prosesdə saxlanılması nəzərdə tutulur.

Nəzərə alsaq ki, bu gün 16 min müəllim çalışır və onların içərisində təxminən 6 min nəfərə yaxını demək olar ki, qeyri-ixtisas sahibləri və yaxud ümumiyyətlə fərqli-fərqli sahələrin şəxsləridir. Hardasa 800 nəfərə yaxını ümumiyyətlə nə orta ixtisas, nə ali təhsil, tam və yaxud da orta ümumtəhsil müəssisəsini bitirməsi haqqında heç bir məlumat yoxdur. Təhsil sənədi yoxdur. Bu kimi qeyri-leqal fəaliyyətlər mütləq aradan qaldırılmalıdır".

*A. Vəli*

## Uşaqlar həcc ziyarətinə nə vaxt gedə bilər?

QURUM RƏSMİSİ AÇIQLADI

"Həcc ziyarətinə uşaqlar da gedə bilər. Burada yaş həddi yoxdur". Bu sözləri SİA-ya açıqlamasında Qafqaz Müsəlmanlar İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev deyib.

Onun sözlərinə görə, uşaqları valideynləri istəsə həddi-büluğ yaşına qədər özləri ilə həcc ziyarətinə apara bilərlər: "Çünki uşaq həddi-büluğ olduqdan sonra



ona həcc ziyarəti vacibdir. Belə ki, oğlanlara 15, qızlar üçün isə 9 yaşdan sonra həcc ziyarəti vacib ola bilər. Təbii ki, maddi durum da burada rol oynayır. Həccə, əsasən, maddi durumu olan insanlar gedə bilir".

*Ayşən*

# Ölüm kağızını bu halda problemsiz almaq olar

**"Son zamanlar yaxınını itirənlər ölüm haqqında tibbi şəhadətnamənin alınması zamanı çətinliklərlə üzləşirlər. Ölüm haqqında tibbi şəhadətnamənin tərtibi və təqdim edilməsi proseduru Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyasının 31 yanvar 2018-ci il tarixli 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnsanın ölüm anının müəyyən edilməsi, reanimasiya tədbirlərinin dayandırılması meyarları və qaydası" ilə tənzimlənir". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin Sədri Fariz Əkbərov deyib.**



Onun sözlərinə görə, həmin Qaydanın 4.2-ci bəndinə əsasən, ölüm hadisəsi yaşayış yerində (kənd və qəsəbə istisna olmaqla) baş veribsə Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının (TTTYS) həkimi ölüm hadisəsini təsdiq edir, bu barədə çağırış vərəqəsində qeydiyyat aparmaqla vəfat edənin şəxsiyyətini təsdiq edən sənəd əsasında "Xəbərdarlıq vərəqəsi"ni müvafiq olaraq ambulator-poliklinik (stomatoloji istisna olmaqla), stasionar və sanator-kurort xidməti göstərən tibb müəssisələri və ya patoloji-anatomik müayinə aparan dövlət tibb müəssisələrinə təqdim etmək üçün doldurur (2 nömrəli əlavə) və ölüm hadisəsi barədə ərazi üzrə polis və ya prokurorluq orqanına məlumat verir: "Ölüm hadisəsi rayonun (şəhərin rayonu istisna olmaqla) kənd (qəsəbə) yerində baş veribsə, kənd sahə xəstəxanasının (həkim məntəqəsinin) həkimi və ya tibb məntəqəsinin feldşeri ölüm hadisəsini təsdiq edir və hadisə barədə hüquq-mühafizə orqanına məlumat verir.

Ölüm hadisəsi vəfat edən şəxsin müayinə və ya müalicə olunduğu stasionar tibb müəssisəsində baş veribsə, şəhadətnamə həmin tibb müəssisəsi tərəfindən verilir.

Ölümün başvermə səbəbi məlum olan hallarda şəhadətnamə "Xəbərdarlıq vərəqəsi" və (və ya) tibbi sənədlər (ambulator tibbi kitabça, xəstəlik tarixindən çıxarış və s.) əsasında vəfat edən şəxsin qeydiyyatda olduğu və ya faktiki yaşadığı ərazi üzrə ambulator tibb müəssisəsi tərəfindən verilir.

Əgər ölüm hadisəsi evdə baş verərsə, Təcili və Təxirəsalınmaz Tibbi Yardım çağırılmalı, TTTY həkimi tərəfindən ölüm hadisəsinin təsdiqi barədə "xəbərdarlıq vərəqəsi" doldurulmalı və ərazi üzrə hüquq-mühafizə orqanlarına məlumat verilməlidir. Həmin "xəbərdarlıq vərəqəsi" vətəndaşın qeydiyyatda olduğu ərazi üzrə tibb müəssisəsinə təqdim edilir. Əgər ölümün səbəbi məlumdursa, həmin tibb müəssisəsi tərəfindən tibbi sənədlərə əsasən ölüm haqqında tibbi şəhadətnamə verilir.

Ölüm faktı Təcili və Təxirəsalınmaz Tibbi Yardım gələnədək ( yəni həkimə qədər) baş veribsə, ölümün səbəbi məlum deyilsə (şikayəti olmayıb, heç bir poliklinikaya müraciət etməyib, tibbi sənədləri yoxdur, ölüm qəfil baş verib) ölüm haqqında tibbi şəhadətnamənin alınması üçün məhkəməyə müraciət edilir".

*Ayşən*

*Baş redaktor:*
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000